ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 40 (1394) ❖ Cümə, 8 dekabr 2023-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur

Prezident İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda iştirak edib

Dekabrın 6-da ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu keçirilib.

Forumu açan ADA Universitetinin rektoru Hafiz Paşayev iştirakçıları salamlayıb, Azərbaycanın özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinin Prezident İlham Əliyevin uzaqgörən liderliyi sayəsində mümkün olduğunu deyib. Bu misilsiz nailiyyət münasibətilə Prezident İlham Əliyevi təbrik edib, Qarabağın bərpası və yenidən qurulması işində uğurlar diləyib.

Prezident İlham Əliyev rektor Hafiz Paşayevə dəvətə görə təşəkkür edib. Bu formatda toplantıların faydasını vurğulayıb.

"Regionda vəziyyət dəyişir və böyük dərəcədə dəyişikliklərin təşəbbüskarı Azərbaycandır. Bu təbiidir, çünki biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin üzərində suverenliyini tam bərpa etməli idik. Biz bunu sülh yolu ilə etmək istəyirdik, eyni şəkildə biz təqribən 30 il ərzində Ermənistan ilə münaqişəni dinc yolla həll etmək istəyirdik. Lakin, təəssüflər olsun ki, bu mümkün olmadı. Bunun bir çox səbəbi var idi və biz onları ötən görüşlərimizdə ətraflı şəkildə müzakirə etmişik", - deyə dövlət başçısı diqqətə çatdırıb.

Prezident İlham Əliyev qeyd edib ki, biz iki il yarım bundan əvvəl suverenliyimizi bərpa edərkən gözlədiyimizin şahidi olduq - Qarabağda Ermənistana məxsus böyük sayda hərbçilər var idi və onlar orada beynəlxalq hüquqa məhəl qoymadan yerləşdirilmişdilər. Onların sayı 15 minə yaxın idi. Üç il ərzində biz səbirli davrandıq, ümid edirdik ki, nəhayət bu vəziyyətin həll yolu tapılacaq. Biz dərk edirdik ki, vəziyyət anormaldır və İkinci Qarabağ müharibəsi bitəndən sonrakı dövrdə bizim təklifimiz çox aydın idi: "Qarabağda yaşayan insanların iki seçimi var. Biri Azərbaycan vətəndaşları olmaqdır və biz bunun üçün hüquqi və təhlükəsizlik çərçivəsi yaradırıq. Yaxud yaşayış üçün başqa yer tapsınlar. Başqa seçim yoxdur. Digər seçim isə özlərinin hesab etmədikləri ölkədə yaşayış və işləmək üçün icazənin alınmasıdır. Bu seçimlər verilmişdi və təəssüflər olsun ki, bizim müraciətlərimiz və bəyanatlarımız lazımi şəkildə dəyərləndirilmədi".

Dövlət başçısı separatçıların liderlərinin təslim olacağı təqdirdə onların amnistiyaya düşmək fürsəti ilə bağlı mövqeyni də xatırladıb: "Bu, ictimai bəyanat idi. Təəssüflər olsun ki, bir daha mənim sözlərim lazımi şəkildə qiymətləndirilmədi. Hazırda separatçıların liderləri Azərbaycandadır. Onlar bura gəlmək istəyirdilər. Onlar bizi hədələyirdilər ki, buraya tank üzərində gələcəklər. Bu gün isə Azərbaycanın ədliyyəsinin hökmünü gözləyirlər".

Prezident İlham Əliyev qeyd edib ki, buna baxmayaraq biz Qarabağ ermənilərinin nümayəndələri ilə təmaslar qura biləcəyimizə ümid edirdik. Lakin orada dırnaqarası hakimiyyəti inhisara götürmüş adamlar buna imkan vermədilər. Bundan əlavə, iki hadisə baş verdi ki, bu, bizim üçün sonuncu, qırmızı xəttin keçilməsi demək idi: "Birincisi, Ermənistanın baş nazirinin dırnaqarası dağlıq qarabağ respublikasının dırnaqarası müstəqilliyi münasibətilə təbriki idi ki, bu, Ermənistanın baş nazirinin dedikləri və imzaladığı ilə tam ziddiyyət təşkil edirdi. Çünki keçən ilin oktyabrında Ermənistanın baş naziri Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımışdır və həmin ruhda olan çoxsaylı bəyanatlardan sonra separatçılara təbrik göndərmək tamamilə qəbuledilməz və ziddiyyətli idi. İkinci və sonuncu qırmızı xətt isə həmin hadisədən bir həftə sonra dırnaqarası dağlıq qarabağ respublikasının dırnaqarası prezidentinin seçkiləri idi ki, bu da İkinci Qarabağ müharibəsindən sonra əldə olunmuş şifahi razılıqların tamamilə pozulması oldu. Razılıq ondan ibarət idi ki, həmin ərazidə hər hansı dəyişikliklər baş verməyəcək".

Dövlət başçısı bir gündən də az sürən antiterror əməliyyatı ilə suverenliyimizi bərpa etdiyimizi bir daha diqqətə çatdırıb: "Yeri gəlmişkən, əməliyyat elə tərzdə aparılmışdır ki, mülki infrastruktura zərər dəyməyib və dinc əhali arasında itkilər olmayıb. Əməliyyat başlayan anda bəyan etdik ki, Ermənistan ordusu silahları yerə qoyan kimi biz dayanacağıq və onlara oraları tərk etməyə icazə verəcəyik. Əməliyyat 24 saatdan az sürdü və onlar təslim olduqlarını bəyan edəndən sonra bütün fəaliyyətlər dayandırıldı.

Prezident İlham Əliyev vurğulayıb ki, hazırda Azərbaycan bir neçə beynəlxalq çağırışla üz-üzədir: "Təəssüflər olsun ki, biz tərəfdaş hesab etdiyimiz bəzi ölkələr tərəfindən anlaşılmazlıq görürük və biz mövqeyimizi izah etməyə çalışırıq. Həm də izah edirik ki, beynəlxalq hüququn normaları hər kəs üçün mütləqdir və selektiv yanaşmaya yol vermək olmaz. Azərbaycan etdiyini BMT Nizamnaməsinin özünümüdafiə ilə bağlı 51-ci maddəsinə uyğun olaraq edib. Bu, beynəlxalq hüquqa əsasən olunub və istənilən ölkə kimi Azərbaycanın da suveren hüququ var ki, ərazisinə tam nəzarət etsin".

Dövlət başçısının çıxışından sonra forum müzakirələrlə davam edib.

Müzakirələrdə Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının gələcəyi, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasının ləngiməsində risklər, Aİ-nin Cənubi Qafqazda artan rolu, Qarabağın qayıdışı və Aİ-nin geosiyasi dinamikası fonunda imkanları, regional tərəfdaşlarla regional problemlərin həlli üçün regional platformanın gələcəyi, Qarabağda yaşamış ermənilər qayıdışa cəlb etmək məqsədilə Azərbaycanın siyasəti, Azərbaycanın Cənubi Qafqazda regional sabitliyin və əməkdaşlığın təşviqində rolu, Azərbaycan və Mərkəzi Asiya arasında münasibətlər və digər mövzularda sualları cavablandırıb.

Daha sonra hərtərəfli müzakirə üçün bütün iştirakçılar Prezident İlham Əliyevə təşəkkür və minnətdarlığını bildiriblər.

Sonda xatirə şəkli çəkdirilib.

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 dekabr 2023-cü il

AMEA-da islahatların yeni mərhələsinə start verildi

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli giriş sözü ilə çıxış edərək "Heydər Əliyev İli" çərçivəsində Akademiyada geniş elmi tədqiqatların aparıldığını, mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. O cümlədən AMEA Rəyasət Heyətinin builki Ümumi yığıncaqları haqqında ətraflı məlumat verərək Akademiyada aparılan islahatlar nəticəsində elektron hərəkatın geniş vüsət aldığını, əhəmiyyətli nəticələrin əldə olunduğunu bildirən akademik İsa Həbibbəyli bugünkü iclasın həmin islahatların davam etdirilməsi məsələlərinə həsr olunduğunu və bununla da AMEA-da islahatların yeni mərhələsinin başlandığını söyləyib.

Sonra akademik İsa Həbibbəyli Türkiyə Cümhuriyyətinə səfərinin nəticələrindən danışıb. O, ilk dəfə olaraq bu il "Türk Dilinə Xidmət" mükafatlarının türkologiya sahəsində mühüm xidmətləri olan görkəmli alimlərlə yanaşı, Türk dünyasında önəmli yeri ilə fərqlənən dövlət təşkilatlarına və elmi qurumlara da verildiyini nəzərə çatdırıb. AMEA rəhbəri Akademiyanın Türkiyə Cümhuriyyətinin Atatürk, Kültür, Dil və Tarix Yüksək Qurumunun "Türk Dilinə Xidmət" mükafatı ilə təltif edildiyini bildirərək, bu mükafatın ona Türkiyə mədəniyyət və turizm nazirinin müavini Gökhan Yazqı tərəfindən təqdim edildiyini deyib.

AMEA rəhbəri "Türk Dilinə Xidmət" mükafatının Azərbaycan Milli Elmlər Akademiyasının müstəqillik illərində təltif olunduğu ilk beynəlxalq mükafat olduğuna diqqət çəkib, Türk dünyasının humanitar elmlər sahəsindəki ilk mükafatına AMEA-nın layiq görülməsini təqdirəlayiq hadisə kimi dəyərləndirib: "Hesab edirəm ki, bu mükafat XX əsrdə türkologiya elminə xidmət etmiş bütün türk dünyası alimlərinin əməyinə verilən xüsusi qiymətdir və türkoloq alimlərimizi digər nüfuzlu mükafatlar almağa təşviq edir".

Türkiyəyə səfəri çərçivəsində Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının (TÜBİTAK) rəhbəri, professor Hasan Mandalla görüşdüyünü söyləyən akademik İsa Həbibbəyli görüş zamanı Azərbaycan Milli Elmlər Akademiyası ilə TÜBİTAK arasındakı əlaqələrin müasir vəziyyətinin və inkişaf perspektivlərinin müzakirə olunduğunu diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli, həmçinin TÜBİTAK-ın ULAKBİM - Dərgi Parkı İnstitutu ilə AMEA arasında əlaqələrin genişləndirildiyini bildirib. Qeyd edib ki, 2024-cü ildə iki qurum arasında ULAKBİM layihəsi ilə yanaşı, süni intellekt, ortaq elmi layihələrin qarşılıqlı surətdə dəstəklənməsi, seysmologiya, arxeologiya, karbon-14 analizlərinin aparılması istiqamətlərində əməkdaşlıq əlaqələrinin qurulması nəzərdə tutulur. Bildirib ki, genişlənməkdə olan əlaqələrin daha səmərəli şəkildə həyata keçirilməsi üçün Akademiyada TÜBİTAK-ın Koordinasiya Mərkəzinin yaradılmasına dair razılıq əldə olunub.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli səfər çərçivəsində Türkiyə Elmlər Akademiyası Baş Assambleyasının Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş açılış iclasında da iştirak edərək "Azərbaycan və Türkiyənin inkişafında "Bir millət - iki dövlət" modeli" mövzusunda məruzə ilə çıxış etdiyini diqqətə çatdırıb.

AMEA-nın Asiyanın elmi qurumları ilə əlaqələrindən də danışan akademik İsa Həbibbəyli Türkiyəyə səfəri çərçivəsində Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Birliyinin prezidenti, professor Əhməd Nuri Yurdusev ilə görüşdüyünü vurğulayıb. Bildirib ki, görüşdə AMEA-nın 2024-cü ildə Malayziya və Sinqapur akademiyaları ilə əlaqələrinin qurulmasına dair fikir mübadiləsi aparılıb.

Sonra AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin və AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyevin Honq Konqda yerləşən Kore Akademiyasına həqiqi üzv seçilmələri barədə məlumat diqqətə çatdırılıb. Akademik İsa Həbibbəyli Azərbaycan alimlərinin dünyanın nüfuzlu akademiyalarından biri olan Kore Akademiyasına həqiqi üzv seçilməsini AMEA tarixində əhəmiyyətli hadisə kimi qiymətləndirib.

Daha sonra çıxış edən AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyev Niderland Krallığının Amsterdam şəhərinə səfərinin nəticələri haqqında məlumat verib. Akademik Rasim Əliquliyev səfəri çərçivəsində Avropa İttifaqının bütün Avropanı əhatə edən, elm və təhsildə informasiya texnologiyalarının tətbiqi problemləri ilə məşğul olan nüfuzlu GEANT təşkilatının Şərq Tərəfdaşlığı ölkələrini əhatə edən "EaPConnect" layihəsi çərçivəsində keçirilən tədbirlərdə iştirak etdiyini qeyd edib. Alim çıxışında Azərbaycanın tərəfdaşı olduğu, Avropa Komissiyası tərəfindən təqdim olunan qrant layihəsinin əhəmiyyətindən bəhs edib, həmçinin iştirak etdiyi tədbirlərdə Azərbaycan elm-kompüter şəbəkəsinin idarə olunması məsələləri ilə bağlı müzakirələrin aparıldığını diqqətə çatdırıb.

Tədbirdə Azərbaycanda böyük elmi məktəblər yaratmış görkəmli alimlərimiz - akademik Arif Paşayevin və akademik Akif Əlizadənin 90 illik yubileylərinin, AMEA-nın müxbir üzvü Övsət Abdinovun isə 80 illik yubileyinin keçirilməsinə dair qərarlar qəbul olunub.

Sonda AMEA-nın 29 noyabrda keçirilmiş Ümumi yığıncağında Elm Tarixi İnstitutunun, AMEA-nın nəzdində "Elm və Texnologiya Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin, AMEA-nın Mərkəzi Nəbatat Bağının, AMEA-nın Təmir-tikinti və quraşdırma idarəsinin, AMEA-nın təsərrüfat hesablı Avtobazasının, AMEA-nın Mineral Xammalın Kompleks Emalı üzrə Təcrübə İstehsalatlı Xüsusi Konstruktor Texnoloji Bürosunun və AMEA-nın "Selen" Elmi İstehsalat Birliyinin ləğv edilməsinin rəsmiləşdirilməsinin başa çatdırılması haqqında qərarından irəli gələn məsələlər müzakirə edilib, bu məqsədlə müvafiq komissiyalar yaradılıb.

Akademik İsa Həbibbəyli Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr olunmuş elmi konfransda çıxış edib

Bakı Dövlət Universitetinin (BDU) İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr olunmuş "Mütaliə mədəniyyəti və oxucu məmnunluğu" mövzusunda respublika elmi konfransı keçirilib.

Tədbirdə Xalq yazıçısı Anarın həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub.

Sonra BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Anarın yaradıcılığından və ictimai fəaliyyətindən danışıb, Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin yazıçının ədəbi-bədii irsinə yüksək dəyər verdiklərini, onun dövlətimizin ən ali mükafatları ilə təltif olunduğunu qeyd edib: "Bu gün Xalq yazıçısı Anarın yubileyinə həsr olunmuş konfransın BDU-da keçirilməsi heç də təsadüfi deyil. Anar müəllimin həm özü, həm də övladları universitetin məzunlarıdırlar. Hesab edirəm ki, konfransının adı və elmi istiqamətləri doğru müəyyən edilib. Anar yaradıcılığı ilə ölkəmizdə mütaliə mədəniyyətinin, oxucu zövqünün formalaşmasına, eləcə də kitabxanalarımızın fondlarının inkişafına mühüm töhfələr verib".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Anarın yaradıcılığı, nəsrindəki çoxşaxəli istiqamətlər, əsərlərinin obrazlar sistemi barədə danışıb: "Anarın yaradıcılığı möhtəşəm azərbaycançılıq abidəsidir. Onun keçmiş mətnlərə yeni nəfəs vermək məharətini yüksək qiymətləndirirəm. Anar müəllim əvvəlki əsərlərinin motivlərinə bir daha qayıtmaqla həmin əsərləri daha da dərinləşdirir".

Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov, BDU-nun Türk filologiyası kafedrasının professoru, Milli Məclisin deputatı Jalə Əliyeva, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxışlarında Anar yaradıcılığının çoxtərəfli istiqamətləri və məziyyətləri barədə danışıblar.

Plenar iclasda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan "Anar yaradıcılığı və oxu mədəniyyəti" mövzusunda məruzə edib.

İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı qeyd edib ki, 2 gün ərzində konfransda Xalq yazıçısı Anarın çoxşaxəli yaradıcılığı barədə, eyni zamanda, sənəd və informasiya menecmenti, informasiya logistikası, mütaliə mədəniyyəti, oxucu zövqü, oxucu məmnunluğu, kitab sənayesi, müəlliflik hüququ və əlaqəli hüquqlar kimi sahələr üzrə ümumilikdə 40-dan çox məruzə dinləniləcək, müzakirələr aparılacaq.

Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Zəfərdən bəhs edib: "Özümü çox xoşbəxt hesab edirəm ki, ölkəmizin gözəl günlərinin şahidi oldum, Qarabağın azadlığını, Şuşamızı görə bildim. Bugünkü xoşbəxtliyimizin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Prezident İlham Əliyev bu təməllər üzərində Azərbaycanı daha qüdrətli ölkəyə çevirdi".

Xalq yazıçısı konfransın təşkilatçılarına, çıxış edənlərə, bütün iştirakçılara təşəkkürünü bildirib: "Məzunu olduğum doğma Bakı Dövlət Universitetində yubileyimə həsr olunmuş yüksək səviyyəli elmi konfransın keçirilməsi mənim üçün çox əlamətdardır. Hesab edirəm ki, universitetin kollektivi və tələbələri ilə görüşlərimiz bundan sonra da davam edəcək".

Azərbaycan-Türkiyə elmi əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyur

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəylinin Türkiyəyə səfəri

Azərbaycan Milli Elmlər Akademiyası Türk Dil Qurumunun "Türk Dilinə Xidmət" Mükafatına layiq görülüb

Azərbaycan Milli Elmlər Akademiyası Türkiyə Cümhuriyyətinin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun ali mükafatı olan "Türk Dilinə Xidmət" Mükafatına layiq görülüb. Mükafatın təqdimetmə mərasimi Ankara şəhərində Türk Dil Qurumunun konfrans salonunda "Türkiyə Cümhuriyyətinin 100 illiyində Türk Dil Qurumu və "Türk Dilinə Xidmət" mükafatları" adlı beynəlxalq toplantının açılışı tədbirində keçirilib.

Açılış mərasimində Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Bakanlığının müavini Gökhan Yazqı, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu başqanı, professor-doktor Dərya Örs, Türk Dil Qurumu başqanı, professor Osman Mert çıxış edərək Türkiyə Cümhuriyyətinin keçdiyi bir əsr ərzində Türk Dil Qurumunun 92 illik fəaliyyəti və xidmətlərindən bəhs etmiş, ilk dəfə olaraq bu ildə "Türk Dilinə Xidmət" mükafatlarının türkologiya sahəsində mühüm xidmətləri olan görkəmli alimlərlə birlikdə türk dünyasında əhəmiyyətli və önəmli yeri ilə fərqlənən dövlət təşkilatlarına və elmi qurumlara da veriləcəyini nəzərə çatdırıblar.

Sonra "Türk Dilinə Xidmət" mükafatlarının təqdimetmə mərasimi olub. Qeyd edək ki, Türkiyə Cümhuriyyətinin yüzüncü ilində Türk dünyasından dövlət qurumu kimi Türkiyə Müdafiə Sənayesi Nazirliyi, elmi təşkilat kimi Azərbaycan Milli Elmlər Akademiyası "Türk Dilinə Xidmət" mükafatına layiq görülüblər.

"Türk Dilinə Xidmət" mükafatını Azərbaycan Milli Elmlər Akademiyasına Türkiyə mədəniyyət və turizm nazirinin müavini Gökhan Yazqı təqdim edib. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək Türkiyə Cümhuriyyətinin yüzüncü ilində və Azərbaycanda qeyd edilən "Heydər Əliyev İli"ndə Akademiyanın "Türk Dilinə Xidmət" mükafatı ilə təltif olunmasının əhəmiyyətindən danışıb və Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumuna və Türk Dil Qurumuna dərin minnətdarlığını bildirib.

Mükafatın təqdim edilməsi münasibətilə salonda Azərbaycan Milli Elmlər Akademiyasına həsr edilmiş 10 dəqiqəlik videoçarx nümayiş etdirilib.

Məlumat üçün bildiririk ki, Türkiyədən görkəmli elm xadimləri professor Yavuz Akpınar, professor Saim Sakıoğlu, professor Nail Tana və Qazaxıstandan Beynəlxalq Türkoloji Mərkəzin rəhbəri, professor Erden Kajıbekə də "Türk Dilinə Xidmət" mükafatları təqdim olunub. Mükafatları Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumun başqanı, professor Dərya Örs və Türk Dil Qurumu başqanı, professor Osman Mert təqdim ediblər.

Tədbirdə professor Həmzə Zülfüqarın "Türkiyə Cümhuriyyətinin yüz ilində Türk Dil Qurumu" mövzusunda elmi məruzəsi dinlənilib.

Qeyd etmək lazımdır ki, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu Başqanlığının "Türk Dilinə Xidmət" mükafatı Azərbaycan Milli Elmlər Akademiyasının müstəqillik illərində təltif olunduğu ilk beynəlxalq mükafatdır.

Azərbaycan və Türkiyənin inkişafında "Bir millət - iki dövlət" modeli

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Türkiyə Elmlər Akademiyasının (TÜBA) Baş Assambleyasında iştirak və çıxış edib.

Türkiyə Elmlər Akademiyası Baş Assambleyasının Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş açılış iclasını TÜBA-nın başqanı, professor Müzəffər Şəkər açıb. AMEA prezidenti, akademik İsa Həbibbəyli yubiley iclasında "Azərbaycan və Türkiyənin inkişafında "Bir millət - iki dövlət" modeli" mövzusunda məruzə ilə çıxış edib.

Bundan başqa, TÜBA-nın yubileyi mərasimində Qazaxıstan, Rumıniya, Bosniya və Herseqovina Elmlər Akademiyalarının rəhbərləri də çıxış ediblər.

Eyni zamanda, iclasda əlavə olaraq İsrail-Fələstin münasibətlərindən bəhs edən bir məruzə dinlənilib.

Baş Assambleyanın iclasında Türkiyə Elmlər Akademiyasının həqiqi və müxbir üzvlüyünə seçkilər keçirilib.

Ankarada TÜBİTAK başqanı ilə əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Türkiyəyə səfəri çərçivəsində Türkiyə Elmi və Texnoloji Araşdırmalar Qurumunun (TÜBİTAK) başqanı, professor-doktor Hasan Mandalla görüşüb. TÜBİTAK-ın Ankara Mərkəzi ofisində keçirilən görüşdə Azərbaycan Milli Elmlər Akademiyası ilə TÜBİTAK arasındakı əlaqələrin müasir vəziyyətindən və inkişaf perspektivlərindən bəhs edilib.

Görüş zamanı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli TÜBİTAK-ın ULAKBİM - Dərgi Parkı İnstitutu ilə rəhbərlik etdiyi elmi qurum arasında əlaqələrin inkişaf etməkdə olduğunu bildirib, Dərgi Park - ULAKBİM-in başqanı Mehmet Mirat Satoğlunun AMEA-ya səfəri zamanı önəmli müzakirələrin aparıldığını və müvafiq qərarların qəbul edildiyini minnətdarlıqla qeyd edib.

Tərəflər 2024-cü ildə ULAKBİM layihəsindən başqa, daha 5 istiqamət üzrə - süni intellekt, ortaq elmi layihələrin qarşılıqlı surətdə dəstəklənməsi, seysmologiya, arxeologiya, karbon-14 analizlərinin aparılması istiqamətlərində əməkdaşlıq əlaqələrinin qurulması ilə əlaqədar məsələləri müzakirə ediblər. Genişlənməkdə olan əlaqələrin daha səmərəli şəkildə qurulması üçün Azərbaycan Milli Elmlər Akademiyasında TÜBİTAK-ın AMEA ofisinin yaradılmasının məqsədəuyğunluğu nəzərə çatdırılıb.

TÜBİTAK başqanı, professor Hasan Mandal Azərbaycan Milli Elmlər Akademiyası ilə genişlənməkdə olan əlaqələrin Türkiyə-Azərbaycan əlaqələrində elmin rolunun daha da artmasına səbəb olacağını qeyd edərək ortaq layihələrə dəstək veriləcəyini diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyası ilə TÜBİTAK arsında yeni Anlaşma memorandumunun imzalanması qərara alınıb.

Qarşılıqlı şəkildə xatirə hədiyyələri təqdim olunub.

Asiya Akademiyaları Birliyi ilə əməkdaşlıq genişlənir

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Ankarada Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Birliyinin prezidenti, professor Əhməd Nuri Yurdusev ilə görüşüb. Görüşdə Azərbaycan Milli Elmlər Akademiyasının 2024-cü ildə qarşılıqlı əməkdaşlığı ilə əlaqədar məsələlər müzakirə olunub.



Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Birliyinin prezidenti, professor Əhməd Nuri Yurdusev Azərbaycan Milli Elmlər Akademiyasının Asiyanın elmi qurumları ilə əlaqələrinin genişlənməkdə davam etdiyini bildirib.

Qarşılıqlı etimad əsasında keçirilən görüşdə Azərbaycan Milli Elmlər Akademiyasının 2024-cü ildə Malayziya və Sinqapur akademiyaları ilə əlaqələrinin qurulmasına dair fikir mübadiləsi aparılıb.

Ədəbiyyat İnstitutunun 2023-cü ildə mühüm elmi nəticələri

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi şurasının hesabat iclası keçirilib.

Öncə il ərzində nəşr olunmuş kitablardan ibarət sərgi ilə tanışlıq olub.

Elmi şuranı AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq gündəlikdəki məsələlərlə iştirakçıları tanış edib. Gündəlik səsə qoyularaq qəbul edilib.

Akademiyada aparılan islahatların əhəmiyyətindən danışan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun cari ildə əldə etdiyi mühüm elmi nəticələri diqqətə çatdırıb.

İclasda AMEA prezidentinin humanitar sahə üzrə müşaviri, akademik Möhsün Nağısoylu, Elmi şura üzvləri və gündəlikdəki məsələlərə aidiyyatı olanlar iştirak ediblər.

Elmi şuranın iclasında institutun əməkdaşları, filologiya elmləri doktorları, professorlar Məmməd Əliyev və Akif İmanlı 75, filologiya üzrə fəlsəfə doktorları, dosentlər Hicran Nəsibova 70 və Qəndab Əliyeva 60 illik yubileylərini münasibəti ilə Fəxri fərmanla təltif ediliblər.

Eyni zamanda Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri, millət vəkili Şamil Ayrım "Ədəbiyyat İnstitutunun Fəxri Dostu" diplomu ilə təltif olunub.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı 2023-cü il üzrə illik elmi hesabatı təqdim edib. Aygün Bağırlı Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, habelə dövlət proqramlarının icrası ilə əlaqədar elmi müəssisələrə tapşırılmış işlərin yerinə yetirilməsi haqqında məlumat verib. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq keçirilən tədbirlər və Ümummilli Lider Heydər Əliyevin 100 ilik yubileyi ilə əlaqədar nəşr olunmuş kitablar barəsində iştirakçıları məlumatlandırıb. Həmçinin, Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq 16 noyabr 2023-cü ildə Rəyasət Heyəti və Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Əhməd Ağaoğlu və Türk dünyası" mövzusunda beynəlxalq elmi konfransı və digər tədbirləri qeyd edib.

Ümumilikdə il ərzində institutda 2 istiqamət, 8 problem, 21 mövzu üzrə işlənilən 162 işdən 109-u tamamlanmış, 53 iş üzrə tədqiqat davam edir. İnstitutun uğurları sırasında 48 kitab və monoqrafiya, 7 tərtib, 8 dərslik, 10 bədii, 2 tərcümə, 4 jurnal və 1 konfrans materialı olmaqla 80 nəşri qeyd etmək olar. 152-i xaricdə olmaqla 1050 məqalə çap olunub.

İnstitutun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli "Elektron Ədəbiyyat İnstitutu" 2023-cü ildə: nəticələr və perspektivlər" mövzusunda məlumat verib. Təhsil şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Günay Qarayeva şöbənin təyinatına uyğun məsələləri diqqətə çatdırıb. Sonda çap və müsabiqə məsələləri müzakirə olunub.

Akademik İsa Həbibbəyli SAF 2023 - Beynəlxalq STEAM Azərbaycan Festivalının açılış mərasimində iştirak edib

Dekabrın 4-də Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində SAF 2023 - Beynəlxalq STEAM Azərbaycan Festivalının açılış mərasimi keçirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açılış mərasimində iştirak edib. SAF 2023 festivalında müxtəlif yarış kateqoriyaları üzrə 96 nəfərdən ibarət münsiflər heyətində Azərbaycan ilə yanaşı, Türkiyə, Böyük Britaniya, Norveç, Slovakiya, Bolqarıstan, Danimarka, Çexiya kimi ölkələr təmsil olunur.

SAF 2023 "Robokids", "Engineers of Future" (Gələcəyin mühəndisləri), "First LEGO League Explore", "VidX", "First LEGO League Challenge", "VEX Robotix Competition" - "VEX Robototexnika müsabiqəsi", "Innovativ Exhibition" (İnnovativ sərgi), "Deep Dive" (Sualtı dronlar/gəmi), "Hackathon", "VEX IQ Competition" (VEX IQ Yarışması), "Mechatronics" (Mexatronika), "Wings and Wheels" (Qanadlar və təkərlər), "FlyTech", "Boat Racing" (Gəmi yarışması), "H2 Grand Prix PRO" adlı ümumilikdə 12 yarış, 15 yaş kateqoriyası üzrə, həmçinin 1 kateqoriya üzrə innovativ layihələr sərgisi formatında keçirilir.

Festivalın final mərhələsində 11 ölkə təmsil olunacaq. Final mərhələsində, ümumilikdə 868 yerli, 159 xarici iştirakçı yarışacaq.

Qeyd edək ki, SAF 2023 festivalının keçirilməsində məqsəd STEAM əsaslı tədrisin təşviqi, şagirdlər arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı, rəqəmsal texnologiya biliciləri olan təhsilalanların müəyyənləşdirilməsi, innovasiyalar və rəqəmsallaşma üzrə beynəlxalq təcrübənin öyrənilməsindən ibarətdir.

Tədqiq və Tətəbbö Cəmiyyəti: diyarşünaslıq araşdırmalarından fundamental elmi tədqiqatlaradək

Noyabrın 30-da AMEA-nın Rəyasət Heyətində Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş "Tədqiq və Tətəbbö Cəmiyyəti: diyarşünaslıq araşdırmalarından fundamental elmi tədqiqatlaradək" mövzusunda konfrans keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, akademik Gövhər Baxşəliyeva Azərbaycan elminin və mədəni-maarif işinin inkişafında böyük rol oynamış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətinə həsr olunmuş konfransın əhəmiyyətini qeyd edib.

Cəmiyyətin XX əsrdə Azərbaycan elminin təşəkküründəki rolundan bəhs edən akademik Gövhər Baxşəliyeva bildirib ki, 1926-cı ilin oktyabr ayında təsis edilmiş Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Azərbaycan elminin təşkilatlanmasında və dövrün ziyalılarının bir qurum altında toplanması istiqamətində ölkəmizdə yaranmış ilk ali elmi təşkilatdır. Vurğulayıb ki, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti sonrakı illərdə akademiyanın yaranması üçün zəmin formalaşdırıb və Azərbaycan elminin bugünkü səviyyəyə gəlib çatmasına öz töhfəsini verib.

Daha sonra AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Dialektologiya şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Güntəkin Binnətova "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətində dialektoloji araşdırmalar" mövzusunda məruzəsini təqdim edib.

Güntəkin Binnətova vurğulayıb ki, ATTC-nin dialektologiya ilə bağlı fəaliyyətində professor Bəkir Çobanzadənin xidmətlərini də qeyd etmək lazımdır. Alimin Azərbaycan dilinin hər hansı bir şivəsi haqqında ayrıca monoqrafik tədqiqatı olmasa da, onun bu sahə ilə bağlı nəzəri görüşləri indi də aktuallığını saxlayır: "Bəkir Çobanzadənin dialektlərin coğrafi üsulla öyrənilməsi ilə bağlı fikirləri onun bu sahədəki fəaliyyətinin əsasını təşkil edir. Alimin gərgin əməyi nəticəsində respublikanın 22 bölgəsindən toplanılmış materiallar əsasında 1930-cu ildə "Azərbaycan türk xalq şivələri lüğəti"nin A hərfini əhatə edən birinci, 1931-ci ildə B hərflərini əhatə edən ikinci buraxılışı işıq üzü görüb".

Qeyd edilib ki, əsası ATTC tərəfindən möhkəm bünövrə üzərində qurulan Azərbaycan dialektologiya elmi sonrakı illərdə akademik M.Şirəliyevin rəhbərliyi ilə özünün ən yüksək inkişaf mərhələsinə çatıb. Şivələrin həm monoqrafik, həm də coğrafi dilçilik üsulu ilə tədqiqi sahəsində xeyli işlər görülüb. 1990-cı ildə 409 yaşayış məntəqəsindən toplanmış materiallar əsasında 128 xəritədən ibarət "Azərbaycan dilinin dialektoloji atlası" çap olunub.

Tədbirdə, həmçinin Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, professor Asif Rüstəmlinin "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaranma tarixi və ilk təsisçiləri", Folklor İnstitutunun direktor müavini, fil.ü.f.d., dos. Afaq Ramazanlının "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətində azsaylı xalqların folkloru", Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, professor İkram Ağasiyevin "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Azərbaycanda tarix elminin inkişafında rolu", Şərqşünaslıq İnstitutunun direktor müavini, fil.ü.f.d., dos. Ruhəngiz Cümşüdlünün "Azərbaycan elminin inkişaf tarixində Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yeri və rolu" və Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəl.ü.f.d., dos. Faiq Ələkbərlinin "Azərbaycanda fəlsəfə tarixçiliyi: problemləri və həlli yolları" mövzusunda məruzələri dinlənilib.

HEYDƏR ƏLİYEV İLİ

Azərbaycan Milli Elmlər Akademiyası

KİTABLAR

HUMANİTAR ELMLƏR BÖLMƏSİ

1. İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Elnarə Akimova, Əlizadə Əsgərli, Aygün Bağırlı və Lalə Həsənova. "Azərbaycan ədəbiyyatında vətənçilik və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İlham Əliyevə" (monoqrafiya). Bakı, Elm, 2023, 460 s.
2. "Kitabi-Dədə Qorqud eposu: Heydər Əliyevdən İlham Əliyevə". Layihənin rəhbəri akademik İsa Həbibbəyli, tərtib edən fil.ü.f.d. İsmixan Osmanlı. Bakı, Elm, 2023, 367 s.
3. "Müdriklik mücəssəməsi" (məruzələr, çıxışlar, görüşlər, müsahibələr). Layihənin rəhbəri akademik İsa Həbibbəyli, toplayıb və tərtib edən fil.e.d. Asif Rüstəmli. Bakı, Elm, 2023, 512 s.
4. Tehran Mustafayev. Mənim Prezidentim. Bakı, Elm və təhsil, 2023, 372 s.
5. İbrahim Yusifoğlu. O, günəş ömrüdü, sönməyəcəkdir. Bakı, Şirvannəşr, 2023, 67 s.
6. Mahirə Hüseynova, Sayalı Sadıqova. Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası. Bakı, Elm, 2023, 372 s.
7. Nadir Məmmədli, Ağamusa Axundov, Müseyib Məmmədov, Məsud Mahmudov. Heydər Əliyev: Azərbaycan dili və azərbaycançılıq. Bakı, Elm və təhsil, 2023, 256 s.
8. Teymur Kərimli. Heydər Əliyev və klassik irsimiz. Bakı, Elm və təhsil, 2023, 188 s.
9. Namiq Abbasov. Azərbaycan mədəniyyətində Heydər Əliyev fenomeni. Bakı, Elm, 2023, 272 s.
10. Ərtegin Salamzadə, Xəzər Zeynalov. Təsviri sənətdə Heydər Əliyev obrazı (ingilis dilində). Bakı, Elm, 2023, 288 s.
11. Gülbəniz Babaxanlı. "Ümummilli Lider Heydər Əliyev - Hüseyn Cavid irsinin böyük hamisi". Bakı, Elm və təhsil, 2023, 184 s.
12. Tahir Paşazadə. Heydər Əliyev və şifahi xalq yaradıcılığı. Bakı, Elm və təhsil, 2023, 180 s.
13. Heydər Əliyev və Əlyazmalar İnstitutu mövzusunda elmi-nəzəri konfransın materialları, Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, 7 iyul 2023-cü il, Bakı: Elm və təhsil, 2023, 148 s.
14. "Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri" mövzusunda respublika elmi konfransının (Bakı, 12 iyul, 2023) materialları. Bakı, Elm və təhsil, 2023, 440 s.
15. Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti (respublika elmi konfransının materialları). Bakı, Elm və təhsil, 2023, 324 s.
16. İncəsənət və mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal) Vol 17, № 2, Bakı, 2023, 113 s.
17. "Heydər Əliyev və Azərbaycan dili" məqalələr toplusu. Bakı, "Zərdabi Nəşr" MMC, 2023, 664 s.
18. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" məqalələr toplusu. Bakı, "Zərdabi Nəşr" MMC, 2023, 552 s.
19. "Heydər Əliyev və Azərbaycan dili" (məqalələr toplusu). Tərtibçi və ön söz: AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi Sevinc Dadaşova. Bakı, 2023
20. Nadir Məmmədli. "Heydər Əliyevin dilçilik görüşləri". Bakı, "Elm və təhsil", 2023

İCTİMAİ ELMLƏR BÖLMƏSİ

21. "Heydər Əliyev: Xalqa xidmətin parlaq nümunəsi" (kollektiv). Elmi məsləhətçi AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, elmi redaktor tarix elmləri doktoru Ədalət Qasımov, rəyçilər akademik İsmayıl Hacıyev, AMEA-nın müxbir üzvü Musa Qasımlı, məsul redaktor tarix üzrə fəlsəfə doktoru Günel Aslanlı. Bakı, 2023, 410 s.
22. Azərbaycan Respublikası tarixi (Heydər Əliyev dövrü). Elm, 2022, 448 s.
23. "Heydər Əliyev -100: Azərbaycanda arxeologiya etnoqrafiya və antropologiya elmlərinin prioritet məsələləri". Məqalələr toplusu. Bakı, AF PoliqrAf, 2023, 420 s.
24. "Heydər Əliyev və müasir Şərq" mövzusunda beynəlxalq konfransın materialları. Bakı, 2023
25. "Zəmanəmizin dahi azərbaycanlısı" adlı məqalələr toplusu. Bakı, 2023.
26. Füzuli Qurbanov. Heydər Əliyev və yeni liderlik: fəlsəfi-elmi analiz. Bakı, Elm və təhsil, 2023, 334 s.
27. Sakit Hüseynov. "Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu". Bakı, "Tuna" QSC, 2023, 277 s.
28. İlham Məmmədzadə, Şənan Həsənov. Heydər Əliyev və İlham Əliyev: güclü dövlət qələbənin fəlsəfəsi, Böyük Qayıdış. Bakı, Elm və Təhsil 2023, 266 s.
29. Heydər Əliyev: Qafqazda sülh və əməkdaşlıq məsələləri (respublika elmi konfransının materialları). Bakı, "KARVSER TRADE" MMC, 208 s.
30. "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq". Toplu. VI kitab, Bakı, Elm və Təhsil, 2023, 408 s.
31. Xatirə Quliyeva. Şuşa Bəyannaməsi-birlik və həmrəylik fəlsəfəsi. Məqalələr toplusu (Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilib). Bakı, Elm, 2023, 400 s.
32. "Heydər Əliyev: Qafqazda sülh və əməkdaşlıq məsələləri" (respublika elmi konfransının materialları). Bakı: "KARVSER TRADE" MMC, 208 s.
33. Musa Qasımlı, Elnur Kəlbizadə, Günel Musayeva. Samirə Həbibbəyli. "Heydər Əliyev və Qafqaz problemləri" Bakı, AF PoliqrAf, 2023, 320 s.
34. Tamilla Kərimova-Kocayeva. "Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası". Bakı, 2023, 213 səh.
35. Qasım Hacıyev. "Heydər Əliyev və Azərbaycan Respublikasının ərazi bütövlüyü". Bakı, "Füyuzat", 2023, 368 səh.

FİZİKA RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİ

36. Misir Mərdanov. "Heydər Əliyev: Xalqa həsr olunmus ömür". Baki, Təhsil, 2023, 399 səh.
37. "İKT-nin Azərbaycan dili problemləri, Azərbaycan dilinin İKT problemləri" respublika elmi-praktiki konfransı. Əsərlər. 21-22 fevral 2023-cü il. Bakı, "Çap Poliqrafiya", 2023, 216 səh.

KİMYA ELMLƏRİ BÖLMƏSİ

38. V.M.Abbasov, D.B.Tağıyev, E.A. Alxaslı. "Ulu Öndər Heydər Əliyevin neft və neft emalı strategiyası". Bakı, Elm, 2023, 148 s.

YER ELMLƏRİ BÖLMƏSİ

39. Kamran Ramazanlı. "Heydər Əliyevin enerji strategiyası və Gürcüstan" (Azərbaycan və gürcü dillərində), Tbilisi 2003, 194 s.

BİOLOGİYA VƏ TİBB ELMLƏRİ BÖLMƏSİ

40. Azərbaycan Respublikasının "Qırmızı kitab"ının 3-cü nəşri, 2 cilddə

NAXÇIVAN BÖLMƏSİ

41. İsmayıl Hacıyev. "Heydər Əliyev siyasəti: tarix və müasirlik". Bakı, Elm, 2023, 336 s.
42. Əbülfəz Quliyev. Aliyə Quliyeva. "Heydər Əliyev-tariximizdə və taleyimizdə". Bakı, 2023, 272 səh.
43. "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda keçirilən respublika elmi konfransının materialları. Naxçıvan, "Tusi" nəşriyyatı, 2023, I hissə, 206 səh.; II hissə, 192 səh.
44. "Heydər Əliyev. Həyatı və siyasi fəaliyyəti" (Ön sözün müəllifi akademik İsmayıl Hacıyev; tərtib edənlər: AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımov; rəyçi: filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov)

GƏNCƏ BÖLMƏSİ

45. Fuad Əliyev, Həsənbala Sadıqov, Samir Pişnamazzadə, Elnur Həsənov, Səbuhi İbrahimov, Zakir Muradov, Rövşən Hüseynov. Heydər Əliyev və Gəncə, (layihə rəhbəri akademik Fuad Əliyev) Bakı: Elm, 2023, 356 s.
46. "Ümummilli Lider Heydər Əliyev və Gəncə" mövzusunda respublika elmi konfransının toplusu. AMEA Gəncə Bölməsinin Nəşriyyatı, 2023, 175 s.
47. "Heydər Əliyev və dahi Azərbaycan şairi Nizami Gəncəvi", konfrans toplusu. AMEA Gəncə Bölməsinin Nəşriyyatı, 2023, 160 s.

ŞƏKİ REGİONAL ELMİ MƏRKƏZİ

48. Reyhan Miqdadqızı. "Sükutun səsi". Bakı, "Elm və təhsil", 2023, 100 səh.

HEYDƏR ƏLİYEV İLİ

Azərbaycan Milli Elmlər Akademiyası

TƏDBİRLƏR

1. **29 dekabr 2022**
2023-cü ilin "Heydər Əliyev" ili elan edilməsi ilə bağlı AMEA Rəyasət Heyətinin xüsusi iclası (həyata keçiriləcək tədbirlər və nəşrlər planının təsdiqi)

2. **13 yanvar 2023**
"Heydər Əliyev dövlətçilik idealları və müasir dövr" mövzusunda elmi konfrans

3. **21 fevral 2023**
"Heydər Əliyev İli" çərçivəsində AMEA-nın Tədbirlər planının icra vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə

4. **18 aprel 2023**
Ulu Öndərin 100 illiyinə həsr olunmuş futbol, stolüstü tennis və şahmat (qadın və kişilər arasında) yarışlarından ibarət Spartakiada
AMEA Azad Həmkarlar İttifaqı, Gənc Alim və Mütəxəssislər Şurası

5. **01 may 2023**
"Görkəmli dövlət xadimi Heydər Əliyev: lider, zaman və müasirlik" mövzusunda AMEA-nın xüsusi iclası

6. **11 aprel 2023**
Heydər Əliyevin 100 illiyi münasibətilə AMEA-da ağacəkmə aksiyası

7. **26-27 sentyabr 2023**
Heydər Əliyev - 100 və Türkiyə Cümhuriyyəti - 100 "Uluslararası oğuz türkcəsi" mövzusunda konfrans
AMEA, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu Başqanlığı, Türk Dil Qurumu

8. **20 iyul 2023**
"Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatı ilə bu qurumun AMEA Rəyasət Heyəti üzrə ərazi partiya təşkilatının birgə tədbiri

9. **29 sentyabr 2023**
"Heydər Əliyev - 100: Türkiyə Cümhuriyyətinin 100 İli" mövzusunda tədbir
AMEA və Türkiyə-Azərbaycan Yüzüncü İl Platformasının təşkilatçılığı ilə birgə

10. **15 noyabr 2023**
Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş IX Beynəlxalq Kitab Sərgisində "AMEA-nın "Heydər Əliyev İli"nə həsr olunmuş kitablarının təqdimatı - Bakı Ekspo Mərkəzi

HUMANİTAR ELMLƏR BÖLMƏSİ

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

11. **18 yanvar 2023-cü il**
"Azərbaycan Respublikasında "Heydər Əliyev İli" və qarşıda duran vəzifələr" mövzusunda dəyirmi masa

12. **28 fevral 2023**
"Heydər Əliyev və Azərbaycan ədəbi-ictimai fikri" mövzusunda elmi sessiya

Nəsimi adına Dilçilik İnstitutu

13. **12 may 2023**
Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Şəhriyar və ana dili" mövzusunda elmi seminar
AMEA-nın Nəsimi dına Dilçilik İnstitutu, Gənc Alim və Mütəxəssislər Şurası, BDU-nun Şərqşünaslıq fakültəsi

14. **19 iyul 2023**
"Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri" mövzusunda respublika elmi konfransı

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

15. **18 aprel 2023**
"Heydər Əliyev və Azərbaycan" mövzusunda respublika elmi konfransı və tədbir çərçivəsində "Heydər Əliyev - 100" adlı kitab sərgisi

16. **7 iyul 2023**
"Heydər Əliyev və Əlyazmalar İnstitutu" mövzusunda respublika elmi-nəzəri konfransı

Memarlıq və İncəsənət İnstitutu

17. **19 aprel 2023**
"Heydər Əliyev və Azərbaycan incəsənəti" mövzusunda respublika elmi konfransı

18. **5 may 2023**
Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş elmi seminar və kitab sərgisi

Folklor İnstitutu

19. **15 may 2023**
"Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti" mövzusunda respublika elmi konfransı

20. **19 may 2023**
Göyçay şəhəri
"Heydər Əliyev və Azərbaycan folkloru" mövzusunda elmi sessiya
Göycay Rayon İcra Hakimiyyəti, AMEA-nın Folklor İnstitutu

21. **14 iyul 2023**
"Heydər Əliyev və gənclik" adlı elmi seminar
Folklor İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurası

İCTİMAİ ELMLƏR BÖLMƏSİ

AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu

22. **19 may 2023**
Ümummilli Lider Heydər Əliyevə həsr edilmiş "Heydər Əliyev-100" mövzunda elmi sessiya
AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun YAP ərazi partiya təşkilatı

23. **3 mart 2023**
"Heydər Əliyevin regionun inkişaf etdirilməsi siyasəti və müasir mərhələdə Azərbaycanın regional inkişafı" mövzusunda respublika elmi konfransı

24. **15 noyabr 2023**
AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu"Heydər Əliyev irsi dünya arenasında" mövzusunda elmi konfrans

AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu

25. **1 fevral 2023**
2 Fevral - Gənclər Gününə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda elmi sessiya

26. **27 mart 2023**
"Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda elmi sessiya

27. **3-4 may 2023**
"Heydər Əliyev və müasir Şərq" mövzusunda beynəlxalq elmi konfrans
AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu, İraq Respublikası Strateji Araşdırmalar Mərkəzi

28. **5 iyun 2023**
"Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda elmi seminar

29. **17 dekabr 12023**
AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Heydər Əliyev və Türk xalqlarının inteqrasiyası" mövzusunda elmi sessiya

AMEA-nın Fəlsəfəvə Sosiologiya İnstitutu

30. **26 yanvar 2023**
"Heydər Əliyevin siyasi irsi və yeni geosiyasi çağırışlar" mövzusunda respublika elmi konfransı

31. **3 fevral 2023**
"Heydər Əliyevin Böyük Qayıdış siyasətində gənclərin fəaliyyət formaları" mövzusunda elmi konfrans

32. **22 fevral 2023**
"Heydər Əliyevin azərbaycançılıq ideyası və multikulturalizm" mövzusunda respublika elmi konfransı

33. **13 mart 2023**
"Heydər Əliyev və azərbaycançılıq konsepsiyası" mövzusunda respublika elmi konfransı

34. **2 may 2023**
"Heydər Əliyev və Azərbaycan fəlsəfə tarixi" mövzusunda elmi seminar

35. **5 may 2023**
"Heydər Əliyev ideyalarının zəfər yürüşü və tarixi qələbənin fəlsəfi dərki" mövzusunda respublika elmi konfransı

36. **10 may 2023**
"Гейдар Алиев и философия межкультурного взаимодействия" ("Heydər Əliyev və mədəniyyətlərarası qarşılıqlı əlaqələrin fəlsəfəsi") adlı oflayn və onlayn formatda dəyirmi masa

37. **31 may 2023**
"Heydər Əliyev və Azərbaycan Pakistan münasibətləri" mövzusunda beynəlxalq elmi konfrans

38. **14 iyun 2023**
"Qurtuluşdan zəfərə: Heydər Əliyevin ideyalarının reallaşması yolu" mövzusunda dəyirmi masa

39. **22 sentyabr 2023**
"Heydər Əliyevin elm və təhsil siyasətinin fəlsəfəsi" mövzusunda elmi seminar

40. **4 noyabr 2023**
"Heydər Əliyev ideyalarından Prezident İlham Əliyevin Zəfər strategiyasına" mövzusunda dəyirmi masa

41. **16 noyabr 2023**
"Universal dəyərlər və milli fəlsəfənin inkişaf problemləri"mövzusunda beynəlxalq konfrans

AMEA-nın Qafqazşünaslıq İnstitutu

42. **3 may 2023**
"Heydər Əliyev: Qafqazda sülh və əməkdaşlıq məsələləri" mövzusunda elmi konfrans

43. **27 aprel 2023**
"Qafqaz ölkələrinin (Rusiya, Türkiyə, Gürcüstan, İran) rəhbərlərinin Heydər Əliyev haqqında fikirləri" mövzusunda dəyirmi masa

AMEA-nın SEYSMOLOJİ XİDMƏT MƏRKƏZİ

44. **6-9 iyun 2023**
Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Seysmologiya və mühəndis seysmologiyası" mövzusunda VII beynəlxalq konfrans

AMEA-nın MƏRKƏZİ ELMİ KİTABXANASI

45. **23 may 2023**
"İnformasiya cəmiyyətində mədəni - tarixi irsin qorunması və ötürülməsində kitabxanaların rolu" mövzusunda respublika elmi konfransı

46. **28-29 noyabr 2023**
"Multikultural cəmiyyətdə kitabxanaların rolu" mövzusunda beynəlxalq elmi konfrans

SƏRGİ FƏALİYYƏTİ

47. **20 fevral 2023**
Yasamal rayonu İcra Hakimiyyəti, YAP Yasamal rayon təşkilatında Heydər Əliyev kitablarından ibarət sərgi

48. **18 aprel 2023**
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində Heydər Əliyev kitablarından ibarət sərginin təşkili

49. **13 oktyabr 2023**
Ankara şəhəri
Ankaranın İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun (İKSAD) təşkilatçılığı ilə keçirilən "VI Beynəlxalq Ankara Multidisiplinar Elmi Araşdırmalar Konfransında Heydər Əliyev kitablarından ibarət sərginin təşkili

HEYDƏR ƏLİYEV LEKTORİYALARI

50. **28 yanvar 2023**
"Heydər Əliyev və kitab mədəniyyəti" mövzusunda lektoriyanın təşkili

51. **30 oktyabr 2023**
"Ulu Öndər Heydər Əliyevin hərb siyasətinin zəfəri" mövzusunda lektoriyanın təşkili

Akademik Rasim Əliquliyev: "AMEA-nın Rəqəmsal İnkişaf Konsepsiyasının əsas hədəfi "Elektron Akademiya"nı formalaşdırmaqdır"

29 noyabr 2023-cü il tarixində keçirilən AMEA-nın Ümumi yığıncağında bir sıra mühüm elmi-təşkilati məsələlərlə yanaşı, son dövrlər AMEA-da aparılan islahat və yeniləşmələr kontekstində elektron elmin formalaşdırılması və inkişaf vəziyyəti müzakirə olunub. Bu barədə çıxış edən AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyev Elektron Azərbaycanın mühüm tərkib hissəsi olan elektron elmin formalaşması və inkişafı ilə əlaqədar dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və məqsədyönlü dövlət siyasətinin həyata keçirildiyini vurğulayıb.

Akademik qeyd edib ki, artıq həm dünya səviyyəsində, həm də ölkəmizdə dövlət siyasətinin əsas prioritetlərindən biri IV Sənaye İnqilabının çağırışlarından irəli gələn texnologiyaların, o cümlədən süni intellekt texnologiyalarının cəmiyyətin bütün sferalarında və hakimiyyət orqanlarının fəaliyyətində tətbiqidir. Ölkəmizdə elm sahəsində həyata keçirilən dövlət siyasətinə, xüsusən elmi fəaliyyətin yeni əsaslar üzərində qurulması və formalaşdırılmasından doğan reallıqlara müvafiq olaraq, son bir il ərzində Akademiyanın fəaliyyət istiqamətlərindən birini informasiya-kommunikasiya texnologiyalarının müxtəlif səviyyələrdə tətbiqi təşkil etmişdir. Bununla əlaqədar olaraq, elektron elmin tərkib hissəsi kimi Elektron Akademiyanın formalaşdırılması və mütəmadi şəkildə inkişaf etdirilməsi AMEA rəhbərliyinin həyata keçirdiyi mühüm istiqamətlərdən biridir. AMEA-nın mövcud strukturu çərçivəsində bütün elmi istiqamətləri əhatə edən bu yanaşmanın, əslində Elmlər Akademiyasının Rəqəmsal İnkişaf konsepsiyası olduğunu qeyd edən akademik Rasim Əliquliyev həmin konsepsiyadan irəli gələn vəzifələri həyata keçirmək üçün icraçı qurum olaraq AMEA Rəyasət Heyəti aparatında "Elektron Akademiya" şöbəsinin formalaşdırıldığın qeyd edib.

Ötən bir ilə yaxın müddətdə AMEA-da elektron elmin formalaşdırılması və inkişafı istiqamətində həyata keçirilən işlərə nəzər salan akademik Rasim Əliquliyev AMEA-nın strukturunda Elektron Akademiya şöbəsi ilə yanaşı, 11 elmi müəssisə üzrə elektron xidmətlər şöbələrinin yaradıldığını, onların vasitəsilə elmi müəssisələrin bütün əməkdaşlarına elektron xidmətlərin göstərildiyini, zəruri elmmetrik biliklərin verildiyini diqqətə çatdırıb. Akademik Rasim Əliquliyev qeyd edib ki, elektron elmin inkişafı üzrə həyata keçirilən bu işlər həm elmi müəssisələrin, həm də elmi işçilərin beynəlxalq elmi mühitə inteqrasiyasına böyük dəstəkdir. Xüsusilə də humanitar və sosial elmlər üzrə aparılan tədqiqatların, bu sahədə fəaliyyət göstərən alim və mütəxəssislərin, eləcə də dərc olunan elmi jurnalların beynəlxalq elmi mühitə, nüfuzlu beynəlxalq bazalara inteqrasiyasına böyük ehtiyac olduğunu vurğulayan akademik Rasim Əliquliyev görülən işlərin daha da sürətləndirilməsinin zəruriliyini qeyd etdi. Alim eyni zamanda ölkə üçün milli strateji əhəmiyyətə malik olan bir sıra elmi resursların rəqəmsallaşdırılması, ayrı-ayrı elmi sahələr üzrə rəqəmsal resursların yaradılması və ən başlıcası AMEA-da müxtəlif səviyyələrdə elektron sənəd dövriyyəsinin tətbiq olunmasından danışdı.

Ötən müddət ərzində Elektron Akademiya şöbəsinin dəstəyi ilə görülən işlərə diqqət yetirən Rasim Əliquliyev AMEA əməkdaşlarının "Google Scholar"-da profillərinin yaradılması, AMEA-nın elmi jurnallarında dərc olunan məqalələrin DOİ kodlarla təmin edilməsi, Vikipediyaya Azərbaycandilli resursların daxil edilməsindən də bəhs edib.

Daha sonra AMEA-nın Rəqəmsal İnkişaf Konsepsiyasının müxtəlif aspektlərinə nəzər yetirən AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev bu sahədə əsas prioritetlərdən birinin humanitar və sosial elmlərdə süni intellekt və informasiya-kommunikasiya texnologiyalarının tətbiqi olduğunu vurğuladı. Akademik qeyd etdi ki, son dövrlər AMEA-da bir sıra elm sahələrində, o cümlədən, folklor sahəsində süni intellekt texnologiyalarına əsaslanan rəqəmsal folklorun formalaşdırılması, folklordan qaynaqlanan süni intellekt metodlarının işlənilməsi, folklor və qeyri-səlis məntiq münasibətləri, Azərbaycandilli virtual mühitdə meydana çıxan sosial-mədəni proseslərin tərkib hissəsi kimi İnternet folklorunun öyrənilməsi istiqamətində mühüm işlər aparılmaqda və sanballı nəticələr əldə olunmaqdadır.

Həmçinin akademik Rasim Əliquliyev Azərbaycan dilində süni intellekt texnologiyalarının tətbiqi, virtual məkanda Azərbaycan dilinin qorunması, inkişaf etdirilməsi, bununla əlaqədar olaraq Elektron Dövlət mühitində Azərbaycan dilinin ekosisteminin formalaşması ilə bağlı çox əhəmiyyətli elmi araşdırmaların aparıldığını, cari ildə "Azərbaycan dilinin İKT, İKT-nin Azərbaycan dili problemləri" adlı bir multidissiplinar elmi konfransın da keçirildiyini diqqətə çatdırıb.

Kompüter tərcüməsi sahəsində mühüm işlərin aparıldığını qeyd edən akademik Rasim Əliquliyev bu sahədə İdarəetmə Sistemləri İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu və Dilçilik İnstitutunun apardığı işləri xüsusi qeyd edib. Alim Milli terminoloji informasiya sisteminin hazırlanması, Azərbaycan dilinin və nitqinin tanınması, onun sintezi və analizi ilə bağlı müəyyən işlərin həyata keçirildiyini, Translitasiya sisteminin istifadəyə verildiyini qeyd edib. Qeyd olunanlarla yanaşı, arxeologiya sahəsində də informasiya-kommunikasiya texnologiyalarının tətbiqi imkanlarından danışan akademik Rasim Əliquliyev arxeoloji tapıntıların elektron bazasının yaradılması, 3D texnologiyasının tətbiqi ilə onların vizuallaşdırılması və s. kimi mühüm əhəmiyyətli işlərdən danışdı.

Akademik Rasim Əliquliyev AMEA-da elektron elmin inkişafından bəhs edərkən digər bir mühüm məqama - son dövrlərdə süni intellekt və informasiya-kommunikasiya texnologiyalarının humanitar və ictimai elmlərin tədqiqat obyektinə çevrildiyini vurğuladı. Alim qeyd etdi ki, hazırda təkcə informasiya-kommunikasiya texnologiyaları və süni intellekt tətbiq olunmur, eyni zamanda həmin texnologiyaların özləri humanitar və sosial elmlərin də tədqiqat obyektinə çevrilir. Bu istiqamətdə xüsusilə AMEA-nın Tarix İnstitutunda Azərbaycanda informasiya cəmiyyətinin, informatikanın və süni intellektin formalaşması tarixi, bütövlükdə informasiya mədəniyyətinin qədim zamanlardan indiyədək formalaşması tarixi, eyni zamanda Fəlsəfə və Sosiologiya İnstitutunda süni intellektin sosial-fəlsəfi aspektləri, süni intellektin etik və hüquqi problemləri kimi məsələlərin araşdırıldığını qeyd etdi.

Sonda Elektron Akademiyanın bu il ərzində həyata keçirdiyi işlər sırasında beynəlxalq əməkdaşlıq münasibətlərinə diqqət yetirən akademik Rasim Əliquliyev burada ilk növbədə TÜBİTAK-la, onun tərkib hissəsi olan ULAKBİM Dərgi Parkı ilə bağlı qarşılıqlı əlaqələrə toxunub. Akademik qeyd edib ki, AMEA-da dərc olunan jurnalların Türk dünyasının Scopus-u kimi qəbul olunan ULAKBİM Dərgi Parkına daxil edilməsi Azərbaycan elminin beynəlxalq aləmə inteqrasiyası sahəsində böyük perspektivlər vəd edir. Eyni zamanda Avropa Komissiyasının EaPConnect layihəsi çərçivəsində Avropa Birliyinin elm və təhsil infrastrukturuna inteqrasiya istiqamətində də mühüm işlər həyata keçirilmişdir.

Sonda AMEA-da elektron elmin formalaşdırılması və inkişafından irəli gələn bir sıra mühüm vəzifələrin həyata keçirilməsi, istər ölkə daxilində, istərsə də beynəlxalq aləmə inteqrasiya sahəsində Akademiyanın qarşısında mühüm vəzifələrin dayandığını qeyd edən AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev bu işdə məsul qurumların, alim və mütəxəssislərin səfərbərliyinin zəruri olduğunu vurğuladı.

Akademik Musa Rüstəmovun qəbirüstü abidəsinin açılışı

Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, akademik Musa Rüstəmovun qəbirüstü abidəsinin açılışı olub.

Açılışda AMEA-nın birinci vitse-prezidenti v.i.e., akademik Arif Həşimov, AMEA-nın vitse-prezidentləri, akademiklər Dilqəm Tağıyev, İradə Hüseynova, Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov, institutun əməkdaşları, elmi ictimaiyyətin nümayəndələri, ziyalılar və mərhum alimin yaxınları iştirak ediblər.

Rusiyalı alimlə görüş

Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunda Dubnanın Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda (BNTİ) çalışan institutun böyük elmi işçisi Nazim Hüseynov və BNTİ-nin Azərbaycan üzrə əlaqələndiricisi, laboratoriya rəhbəri Yevgeni Yakuşev qonaq olublar.

Qonaqlar institutun baş direktoru, BNTİ-nin Azərbaycan üzrə tamhüquqlu fövqəladə və səlahiyyətli səfiri, akademik Arif Həşimovla görüşüblər.

Tanışlıq məqsədi daşıyan görüş çərçivəsində Dubnada uzunmüddətli ezamiyyətdə olan azərbaycanlı alimlərin gördüyü işlər, yeni kadrların cəlb olunması, gələcək əməkdaşlıq perspektivləri və s. müzakirə olunub.

Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu hesabat verib

AMEA-nın Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu 2023-cü ildə həyata keçirdiyi elmi və elmi-təşkilati işlərlə bağlı hesabat verib.

İclası açan Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev institutun ümumi göstəricilərinə nəzər salıb, fəaliyyətini yüksək qiymətləndirib.

Daha sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev müəssisənin 2023-cü ildəki fəaliyyəti ilə bağlı hesabatını təqdim edib.

Professor diqqətə çatdırıb ki, il ərzində 1 problem və 1 mövzunu əhatə edən 7 iş 14 mərhələdə yerinə yetirilib. 2023-cü ildə institut əməkdaşlarının 8 monoqrafiya, 1 metodik vəsait, 75 elmi məqalə, 30 konfrans materialı və 1 tezis olmaqla 115 elmi əsəri və 47 qəzet məqaləsi çap olunub. Məqalələrdən 4-ü impakt faktorlu jurnallarda dərc olunub ki, onlardan 3-ü Scopus indeksinə malikdir. Bütün elmi məqalələr beynəlxalq kodlu jurnallarda çap edilib, elmi əsərlərə 433 istinad qeydə alınıb.

İl ərzində institut əməkdaşları 6 beynəlxalq, 4 respublika səviyyəli konfransda, 20 muxtar respublika səviyyəli tədbirdə, eləcə də Naxçıvan Bölməsində keçirilən 25 konfrans və tədbirdə çıxış ediblər. İnstitutun Elmi şurasının 9 iclası, elmi-tədqiqat işləri ilə bağlı 8 seminarı keçirilib. İnstitut əməkdaşları muxtar respublikada keçirilən elmi, sosial-siyasi və mədəni tədbirlərdə yaxından iştirak edib, müxtəlif televiziya kanallarında, radio və mətbuat orqanlarında çıxışlar ediblər. İnstitutda Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi tarixinin öyrənilməsi problemi üzrə 1 mühüm nəticə əldə edilib.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları tədqiqat dövründə Rusiya, İran, Türkiyə alimləri ilə əməkdaşlıq etmiş, Türkiyə Cümhuriyyətinin Mədəniyyət və Turizm Nazirliyi Atatürk Mədəniyyət, Dil və Tarix Ali Qurumu, Türk Tarix Qurumu və bir sıra ali məktəbləri, ABŞ-ın elm və təhsil müəssisələri, AMEA-nın Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutları ilə sıx elmi əlaqədə olublar.

Vəli Baxşəliyev 2023-cü ildə institut əməkdaşlarının iştirakı etdiyi beynəlxalq və yerli arxeoloji ekspedisiyaların nəticələrini nəzərə çatdırıb, habelə beynəlxalq elmi indeksləndirmə və xülasələndirmə baza və sistemlərindəki göstəriciləri barədə məlumat verib. Professor çıxışının sonunda ona ünvanlanan sualları cavablandırıb.

Sonda İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov çıxış edərək institutun fəaliyyətini və təqdim olunan hesabatı yüksək qiymətləndirib, qəbul olunmasını təklif ediblər.

Kibertəhlükəsizlik məsələləri ilə bağlı qrant layihəsinin icra vəziyyəti müzakirə olunub

Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunda AR Dövlət Neft Şirkətinin Elm Fondu tərəfindən maliyyələşdirilən "Neft-qaz sənayesinin idarəetmə sistemlərinin kompleks kiber-fiziki təhlükəsizliyi məsələləri" qrant layihəsi çərçivəsində aparılan tədqiqatların hesabatına həsr olunmuş seminar keçirilib.

AMEA-nın vitse-prezidenti institutun baş direktoru akademik Rasim Əliquliyev çıxış edərək, elmi fəaliyyətin səmərəliliyinin artırılması, əməkdaşların əməyinin stimullaşdırılması, eləcə də əldə edilən nailiyyətlərin geniş ictimaiyyətə çatdırılması baxımından ölkə və beynəlxalq səviyyəli qrant layihələrində fəal iştirakın vacibliyini qeyd edib.

Sonra müvafiq qrant layihəsi üzrə görülmüş işlərin monitorinqinin aparılması, elmi nəticələrin qiymətləndirilməsi və yeni vəzifələrin müəyyənləşdirilməsi məqsədilə institut əməkdaşlarının əldə etdikləri nəticələrə dair hesabatlar təqdim olunub. Hər bir layihə icraçısı qarşısına qoyulan məsələ, çap olunmuş məqalə və tezislər barədə ətraflı məlumat verib.

Hesabatlara dair fikir mübadiləsi aparılıb, çoxsaylı suallar cavablandırılıb.

Akademik Rasim Əliquliyev dövlət siyasətinin prioritetləri və yeni çağırışlarla bağlı olan kibertəhlükəsizlik problemlərinin müxtəlif aspektlərinə həsr olunmuş tədqiqatların dərinləşdirilməsi və əldə edilən elmi-nəzəri nəticələrin nüfuzlu jurnallarda nəşr olunmasının önəmini vurğulayıb.

"Qeyd olunan qrant layihəsi çərçivəsində intellektual bulud sistemlərinin kibertəhlükəsizlik və kiberdayanıqlılıq məsələləri, kiber-fiziki sistemlərin kritikliyinin qiymətləndirilməsi və digər aktual problemlərlə bağlı əsaslı tədqiqatların aparılması müvafiq sahədə elmin inkişafına mühüm töhfələr verəcək", - deyə bildirən alim gələcək tədqiqatlara dair təklif və tövsiyələrini səsləndirib.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor Məmməd Əliyev zəngin elmi və bədii yaradıcılığı olan ədəbiyyatşünas alimlərimizdəndir. Dərin elmi biliklərə, sağlam məntiqə əsaslanan, özünəməxsus elmi üslubu ilə fərqlənən professor Məmməd Əliyevin elmi araşdırmalarının hüdudları çox genişdir. Məmməd Əliyevin qələmə aldığı elmi və bədii əsərləri onun yaradıcılığının genişliyindən xəbər verir. Azərbaycan ədəbiyyat tarixinin, müasir Azərbaycan ədəbiyyatının, ədəbiyyat nəzəriyyəsinin, Türk xalqları (Türkiyə və Orta Asiya xalqları) ədəbiyyatının aktual məsələlərinə biganə qalmayan Məmməd Əliyev aktual ədəbi problemləri elmi yaradıcılığının qayəsinə çevirir. O, ümumi nəzm problemlərinə, türkdilli şeirin tarixi poetikasına, onun ilk kitabələrindən tutmuş zamanımıza qədər inkişaf qanunauyğunluqlarına, vəzn və dil münasibətlərinə bələd olan ədəbiyyat nəzəriyyəçisidir. M.Əliyev türk eposunu, bu əsasda türk xalqları ədəbiyyatının inkişaf problemlərini, ayrı-ayrı şəxsiyyətlərin ədəbiyyatın inkişafındakı rolunu tədqiq edən peşəkar mütəxəssisdir. Nədən və kimdən yazır-yazsın, müəllif araşdırmalarını türkçülük, azərbaycançılıq müstəvisində aparır.

Ədəbiyyatşünas alim və yazıçı: Məmməd Əliyev

Azərbaycan ədəbiyyatşünaslığı

Məmməd Əliyevin elmi yaradıcılığında ədəbiyyat nəzəriyyəsinə, Azərbaycan ədəbiyyatşünaslığına baxışı hərtərəfli və elmi yanaşması ilə diqqəti cəlb edir. Müəllif ədəbiyyatşünaslıqda tədqiqatçıların fikir ayrılıqlarına səbəb olmuş nəzmin əlamətlərinə, vahidlərinə, vəznlərinə, Azərbaycan ədəbiyyatının elmi tədqiqatlarda əksini tapmasına və s. məsələlərə aydınlıq gətirir.

Məmməd Əliyevin "İlk anadilli qəzəlimiz" adlı yazısında isə klassik Azərbaycan şeirinin ən geniş yayılmış janrlarından olan qəzəl janrına elmi yanaşması diqqəti cəlb edir.

Professor Məmməd Əliyev mürəkkəb elmi sistemə malik olan əruz vəznli şeirdə təfiləni, təfilənin ritmik fünksiyasını, təfilədə qəlib, ölçü, bölüm, heca, misra münasibətlərini ətraflı şəkildə elmi yaradıcılığının tədqiq obyektinə çevirir. Məmməd Əliyevin əruzşünaslıq sahəsində dəyər və elmi əhəmiyyət kəsb edən "Türkdilli şeirdə təfilənin ritmik funksiyası" adlı tədqiqatında Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Mirzə Ələkbər Sabir, Abbas Səhhət və digər Azərbaycan klassik söz ustadlarının yaradıcılığı əsasında təfilə, təfilənin hecada, misrada özünü əks etdirə bilməsi və s. məqamlar geniş tədqiq edilir. Məmməd Əliyev təfilə, təfilənin heca, misra ilə münasibətlərini, təfilələrin müxtəlif yazılışda təqdim edilməsi problemini, təfilələrin müxtəlif yazılışı zamanı yaranan çətinliklərini, təfilələrin yazılışında (1956-1977-ci illər arasında) fərqli variantlarla üzləşməsini və s. açıqlayarkən, özündən əvvəl formalaşmış elmi görüşlərə əsaslanmışdır.

Azərbaycan ədəbiyyatı tarixini dərindən tədqiq edən Məmməd Əliyevin İmadəddin Nəsimi yaradıcılığı ilə bağlı araşdırmalarında ("Nəsimi lirikası haqqında düşüncələr" adlı elmi əsərlərində) hürufizm, insan amili, iki cahan, kamil insan, hüsn, camal, vəhdəti-vücud, təcəlli kimi amillərə işıq salınır. Müəllif yaradıcılığı və şəxsiyyəti Azərbaycan elmi və sosial-siyasi dairələrin daimi marağında olan İmadəddin Nəsiminin elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilir. Müəllif İmadəddin Nəsimini "Ana dilli fəlsəfi şeiri əlçatmaz zirvələrə qaldıran şair-mütəfəkkir", "iki əsrin bir möcüzəsi" kimi dəyərləndirir.

Professor Məmməd Əliyevin Nəsiminin yaradıcılığında tədqiqatçıların əsas iki meyli qabartmalarını yanlış hesab etməsi də diqqəti cəlb edir: "Keçmişə nəzər salsaq, Azərbaycan nəsimişünaslığında şairin bədii irsinin öyrənilməsində iki meyli qabarıq görə bilərik:

- Nəsiminin dinsiz, allahsız olmasına inam yaratmaq;
- Zamanımızda isə Nəsiminin dindar, yalnız allaha qovuşmaq ideyasını tərənnüm edən sufi (hürufi) xadimi kimi təqdim etmək.

Hər iki yanaşma yanlış və birtərəflidir".

Müəllifin tədqiqatçılar tərəfindən irəli sürülən bu iddialara haqlı etirazı təqdirəlayiqdir.

Türk xalqları ədəbiyyatı

Türk xalqları ədəbiyyatının tədqiqi Məmməd Əliyevin elmi yaradıcılığının ayrılmaz tərkib hissəsidir. Türkiyə ədəbiyyatı və Orta Asiya xalqları ədəbiyyatı müəllifin yaradıcılığının ana xəttinə çevrilir. Müəllifin türk xalqları ədəbiyyatının görkəmli nümayəndələri haqqında elmi mülahizələri türk ədəbiyyatının incələməsinə şərait yaradır.

Məmməd Əliyev ümumtürk ədəbiyyatı kontekstində Türkiyə ədəbiyyatını da tədqiq edir. Onun "Cəlaləddin Rumi və onun "Məsnəvi"si haqqında", "Yunus Əmrə: özü və sözü (Yunus Əmrə şeirinin vəzn şəkilləri)", Ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2006) Orxan Pamuk yaradıcılığı haqqında "Orxan Pamuk zirvəsi" kimi geniş həcmli məqalələri" diqqətdən yayınmır. Professor Məmməd Əliyev "Cəlaləddin Rumi və onun "Məsnəvi"si haqqında" adlı məqaləsində Cəlaləddin Ruminin dünya ədəbiyyatındakı mövqeyinə aydınlıq gətirir: "Rumi Nizami Gəncəvidən sonra XI-XII əsrlər Şərq intibahının yetirdiyi, Nizami ədəbi məktəbinin davamçısı, ən böyük simalarından biri olub, fəlsəfi düşüncələrinin poetik yaradıcılığında təcəssümü bədii sözün yüksək emosional ifadəsi ilə tərənnümündə özünü əks etdirmiş, teologiyası Aristotel, Platonun fəlsəfi görüşləri kimi dərin və bəşəri səciyyə daşımış, mövzu zənginliyi, poetik formalarının kəsb etdiyi novatorluğu ilə seçilmişdir".

Məmməd Əliyev öz elmi yaradıcılığında roman ustadı, türk ədəbiyyatının Nobel mükafatına layiq görülmüş nümayəndəsi Orxan Pamuk yaradıcılığına geniş yer ayırır. Onun yazıçının yaradıcılığını yüksək dəyərləndirməsi ədibə verilən elmi dəyərdir. "Orxan Pamuk zirvəsi" məqaləsində yazıçını "özünün əsrarəngiz poetik yaradıcılığı, dərin müşahidə qabiliyyəti, hadisələri seçib qiymətləndirmək bacarığı ilə fərqlənən, qələmə aldığı mövzunun təfərrüat və detallarına böyük həssaslıq, insan ruhunun dərinliklərindəki fırtınaları hiss etdirmək gücüylə, qeyri-adi səbr və təmkinlə oxucusuna çatdırmaqla onu qəhrəmanlarının taleyi ilə yaşamağa məhkum edən nadir sənətkarlardan" biri hesab edir.

Məmməd Əliyev yazıçının 22 yaşında qələmə almağa başladığı "Cövdət bəy və oğulları" romanına biganə qalmamış, əsəri "...Türkiyə Cümhuriyyətinin həyat hekayəsi" adlandırır. Əsərin təzyiqə məruz qalması məqamını açıqlayan Məmməd Əliyev qeyd edir ki, "ilk romanının bu cür təzyiqə məruz qalmasının səbəblərindən biri, 1980-ci illərdə türk ədəbiyyatında roman janrının hələ də "kənd realizmi"nin təsiri altında olması idi".

Professor özünəməxsus təhlil gücüylə Orxan Pamukun 1990-cı ildə işıq üzü görmüş "Qara kitab" romanının da elmi dəyərini verir: ""Qara kitab" yazıcı təxəyyülündə reallıqla qeyri-reallığın, maddi aləmlə qeyri-maddi dünyanın qovuşması ilə insan düşüncəsinə gətirdiyi təlatümləri əks etdirmək baxımından postmodernist ədəbi nümunə kimi maraq doğurur".

Professor Məmməd Əliyevin Orta Asiya xalqları ədəbiyyatını tədqiq edən elmi əsərləri diqqət çəkir. Onun qələmə aldığı "Muxtar Auezov və Böyük Çöl mədəniyyəti", "Abayın tarixi-bədii obrazı (Abay Kunanbayev-175)" kimi məqalələri, "Muxtar Auezovun həyatı və yaradıcılığı" (B., 2021) adlı monoqrafiyası Orta Asiya xalqları ədəbiyyatının nümayəndələrinin yaradıcılığına işıq salır.

Professor Məmməd Əliyev bir ədəbiyyatşünas kimi Abay Kunanbayevin yaradıcılığının hansı mənbələrdən qaynaqlanmasına da aydınlıq gətirməsi diqqətdən yayınmır: "Abayın yaradıcılığı bir tərəfdən qədim abidələrdə, daş kitabələrdə yazılmış ümumtürk şeirindən, digər tərəfdən isə klassik Şərq şerindən, xüsusən Azərbaycan və fars-tacik ədəbiyyatından ilhamlanırdı".

Bədii yaradıcılığı

Professor Məmməd Əliyevin elmi yaradıcılığı ilə yanaşı bədii yaradıcılığı da diqqətdən yayınmır. Onun "Həsrətin o üzü", "Karvan köçər, ötər gedər sədası", "Mavi-yaşıl gözlərin işığı" romanlarında faktiki həyat materialları müəllifin iştirak etdiyi, şəxsən şahidi olduğu hadisələr fonunda bədii dillə təqdim edilir. Bədiiləşmiş həqiqəti bədii düşüncənin vacib faktoru kimi əks etdirdiyi bu romanlarda müəllif həm də fakt və ayrı-ayrı şəxslərin səciyyəvi xüsusiyyətlərini yazıçı interpretasiyasından keçirərək ictimai, siyasi, sosial, elmi, ədəbi-bədii və s. problemləri əks etdirir. Romanlarının problematikasında bədii ədəbiyyatın təbliğ edilməsi, tarixi keçmişə hörmətlə yanaşma, kökə bağlı olmağa çağırış, insanların, xüsusilə də gənclərin talelərinə biganə qalmamaq və s. aktual problemlərə münasibət bildirilir.

Müəllif müstəqillik dövrü ədəbiyyatımızın ilk epoxal roman-trilogiyasını yazmaq missiyasını şərəflə yerinə yetirib.

Hal-hazırda Nizami Gəncəvi adına Ədəbiyyat institutunun Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri, professor Məmməd Əliyevin elmi və bədii yaradıcılığı gələcək nəsillərə örnək olmaqla onunla yaxından tanış olmağa və müxtəlif istiqamətli ədəbiyyatşünaslıq məsələlərinin öyrənilməsinə imkan yaradacaqdır.

Salidə ŞƏRİFOVA
filologiya elmləri doktoru

75 yaşın zirvəsində

2023-cü il noyabrın 20-də zoologiya elmi sahəsində tanınmış alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, biologiya elmləri doktoru, professor İlham Xəyyam oğlu Ələkbərovun 75 yaşı tamam olmuşdur.

İlham Ələkbərov 1948-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atası - tanınmış terioloq alim, b.e.n. Xəyyam Ələkbərov ömrünün sonuna kimi Zoologiya İnstitutunda, anası b.e.n. Xalidə Quliyeva uzun illər Botanika İnstitutunda çalışmışlar. Valideynlərinin biologiya elmlərinə olan bağlılığı İlham Ələkbərovda uşaq yaşlarından bu sahəyə marağın yaranmasına səbəb olmuşdur.

İ.Ələkbərov 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsini, daha sonra aspiranturanı bitirmişdir. 1977-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. Onun tərəfindən Azərbaycanda 3 su anbarının planktonunda 120 növ infuzor qeydə alınmışdır ki, bunlardan 1 cins və 20 növ elm üçün ilk dəfə təsvir olunmuşdur.

1975-ci ildə İlham Ələkbərov Azərbaycan EA Rəyasət Heyətinin qərarı ilə Fiziologiya İnstitutuna keçirilir və 1986-cı ilə kimi orada çalışır. Bu illər ərzində o, Azərbaycanın sərbəstyaşayan şirin su infuzorlarının növmüxtəlifliyi və ekologiyası üzrə araşdırmalarını planlı şəkildə davam etdirir.

İ.Ələkbərov 1987-ci ildə Leninqrad Dövlət Universitetində uğurla müdafiə etdiyi doktorluq dissertasiyası sırf zoologiyaya aid nailiyyətlərlə yanaşı, infuzorların ekologiyası üzrə yeni nəticələri əks etdirdiyi üçün elmi ictimaiyyətdə böyük maraq doğurmuşdur.

İlham Ələkbərov 1986-cı ildə Azərbaycan EA-nın Zoologiya İnstitutunun Protozoologiya laboratoriyasına böyük elmi işçi vəzifəsinə təyin edilmişdir. 1989-cu ildən indiyədək həmin laboratoriyanın müdiridir.

Alim 1990-cı ildə "Çanaqlı amöblərdən daimi preparatların hazırlanması üsulu" (№1576099) üzrə müəlliflik şəhadətnaməsi almışdır. 1990-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə İlham Ələkbərova professor elmi adı verilmişdir.

İ.Ələkbərov 1990-cı ildə Azərbaycandan daha 2 əməkdaşla birlikdə Qırğızıstan EA-nın təşkilatçılığı ilə Orta Asiya üzrə beynəlxalq ekspedisiyada iştirak etmişdi. İştirakçılar 2 ay müddətində Özbəkistan, Qırğızıstan və Tacikistan üzrə əsasən, dağlıq rayonlar olmaqla, 8,5 min km-dən cox məsafə qət etmişdilər. İlham Ələkbərov tərəfindən zəngin material toplanmış və 2 hissəli böyük bir məqalə dərc olunmuşdur.

1992-1993-cü illərdə İlham Ələkbərov Beynəlxalq Elm Fondunun qısamüddətli qrant layihələri üzrə 2 müsabiqənin qalibi olmuşdur.

90-cı illərin sonlarından etibarən, Azərbaycanda bir çox Qərb neft şirkətlərinin fəaliyyətinin gücləndiyi vaxtlarda İ.Ələkbərov dəniz sahələrində seysmik kəşfiyyat təsirinin biomonitorinqlərində iştirak edir. Belə ki, 1998-ci ildə o, "ELF" Fransa şirkəti üçün Xəzərin plankton və bentos orqanizmlərinə seysmik kəşfiyyatın təsirini müəyyənləşdirmək məqsədilə aparılan biomonitorinqə rəhbərlik etmişdir. 1999-cu ildə analoji tədqiqatlar İtaliyanın "AGIP" şirkəti, 2000-ci ildə isə Yaponiyanın "JAOC" şirkəti ücün aparılmışdır. Həmin tədqiqatların nəticəsində seysmik kəşfiyyatın bütün canlı orqanizmlərə, xüsusən, 10-15 m dərinlikdə yayılmış canlılara güclü mənfi təsir göstərdiyini aşkarladı. Bu məlumatlara qədər şirkətlərin rəhbərlikləri ilə dəniz seysmik kəşfiyatının aparılması biomüxtəliflik ücün tamamilə zərərsiz hesab edilirdi.

İlham Ələkbərov həmçinin, 2000-ci ildə Amerika şirkəti (EXXON Azerbaijan Operating Company LLC) ilə bağlanmış müqavilə əsasında 3 ay ərzində Xəzər dənizində biomonitorinqin aparılması proqramında iştirak etmişdir.

2005-ci ildə İ.Ələkbərovun "Sərbəstyaşayan infuzorlar atlası" adlı ilk monoqrafiyası nəşr olundu. Kitabda Azərbaycanın torpaq və su hövzələrində, o cümlədən, digər regionlarda (Rusiya, Ukrayna, Orta Asiya, Baykal gölü, Çukot və Berinq dənizləri, Sakit Okean, Meksika körfəzi) müəllif tərəfindən qeydə alınmış nadir və elm ücün yeni infuzor növlərinin orijinal şəkilləri və mikrofotoqrafiyalarla təsviri verilmişdir.

İlham Ələkbərov 2006-cı ildə ANSF-CRDF (Azərbaycan-ABŞ) I elmi layihə müsabiqəsinin qalibi olmuşdur. Bu layihə çərçivəsində Ostində, Texas Üniversitetinin nəzdindəki Dəniz Tədqiqatları İnstitutunun professoru Edvard Baski ilə birlikdə Mnemiopsis leidyi daraqlısının Xəzər dənizinə daxil olmasının nəticələri tədqiq edilmiş, ilk dəfə Xəzər dənizində bu daraqlı növünün qida spektri öyrənilmişdir.

Alim 2007-ci ildə Sankt-Peterburqda keçirilən Protozooloqların V Avropa konqresində iştirak etmiş və sərbəstyaşayan infuzorların zoocoğrafiyasına aid ingilis dilində məruzə ilə çıxış etmişdir. Yenə həmin ildə səyahət qrantı qazanaraq, Bonn Universitetinin professoru Norbert Vilbertlə birlikdə Baykal gölünün sərbəstyaşayan infuzorlarının tədqiqində iştirak etmişdir. Elm üçün bir neçə yeni növlərin illüstrasiyalı təsviri də daxil olmaqla, bu tədqiqatların nəticələri irihəcmli məqalə şəklində dərc olunmuşdur.

İ.Ələkbərov 2008-ci ildə ANSF-CRDF elmi layihələrinin (Azərbaycan-ABŞ) II müsabiqəsinin qalibi olmuşdur. Layihə Texas Universitetinin (San-Antonio) professoru Costna Şarma ilə birgə yerinə yetirilmişdir.

2009-cu ildə İlham Ələkbərov DAAD alman fondunun qrantını qazanmış, bu layihə çərçivəsində professor Norbert Vilbertlə birlikdə Bonn Universitetinin tələbələri ilə Fransanın Atlantik sahillərində məşhur Roskoff stansiyasında yay təcrübə dərsləri keçirmişdir. Alimin şəxsi təşəbbüsü ilə molyusklardan ibarət kolleksiya toplanaraq, Bakıya gətirilmişdir və hazırda AR ETN Zoologiya İnstitutunun muzeyində saxlanılır.

2001-2007-ci illərdə İlham Ələkbərov "British Petrolium Azerbaijan" şirkətinin elmi tədqiqat və biomonitorinq qrupunda AMEA-nın nümayəndəsi, 2003-2009-cu illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının biologiya üzrə ekspert şurasının üzvü, daha sonra sədri olmuşdur.

İlham Ələkbərov 2007-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir. 2009-cu ildə AMEA Zoologiya İnstitutunun direktor müavini, 2011-2016-cı illərdə isə direktoru olmuşdur. Bu müddət ərzində institut üçün bir sıra müasir cihaz və avadanlıq alınmış, aparılan tədqiqat işlərinin elmi səviyyəsinin yüksəldilməsinə imkan yaranmışdır.

2012-ci ildə İ.Ələkbərovun "Azərbaycanın sərbəstyaşayan infuzorları" adlı ikinci monoqrafiyası işıq üzü gördü. Kitabda müəllifin ibtidailərin bu qrupunun ekologiyasına aid 45 ildən artıq müddəti əhatə edən tədqiqatlarının nəticələri verilmişdir.

2015-ci ildə "Workshop Global Biodiversity of Ciliates" adlı beynəlxalq seminarın təşkilatçıları tərəfindən səyahət qrantı qazanan İlham Ələkbərov Sindao şəhərində (ÇXR) olmuş və öz çıxışında dünya mütəxəssislərini Azərbaycan protozooloqlarının uğurları ilə tanış etmişdir.

İ.Ələkbərov 2017-ci ildə həmkarları ilə birlikdə Azərbaycanda sərbəstyaşayan infuzorlar və çanaqlı amöblərə aid ingilis və rus dillərində ilk kadastrı dərc etdirmişdir. Bu məcmuədə 757 növ infuzor və 265 növ çanaqlı amöbə ölkəmizin dəniz, şirin su hövzələri və torpaqlarında rast gəlinməsi və onların yayılması üzrə məlumatlar ümumiləşdirilmişdir.

2023-cü ildə çapdan çıxmış "Sərbəstyaşayan infuzorlar və onların ətraf mühitin biotestləşdirilməsində rolu" adlı monoqrafiyada müəllif tərəfindən Xəzər dənizində, şirin sularda və torpaqda yaşayan sərbəstyaşayan infuzorların öyrənilməsi üzrə 50 il müddətində aparılmış ekoloji tədqiqatların nəticələri əks etdirilmişdir.

İlham Ələkbərov 5 monoqrafiyanın və əksəriyyəti xaricdə nəşr olunmuş 190-dan çox elmi əsərin müəllifi və həmmüəllifidir. Alim 10 namizədlik və 2 doktorluq dissertasiyasının rəhbəri olmuşdur, hazırda 1 doktorluq dissertasiyasının elmi məsləhətçisidir. O, 3 yerli və 4 xarici elmi jurnalın redaksiya heyətinin üzvü, bir sıra nüfuzlu jurnalların rəyçisidir.

AMEA-nın müxbir üzvü İlham Ələkbərovu 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və yeni elmi uğurlar arzulayırıq.

Ələddin EYVAZOV
AR ETN Zoologiya İnstitutunun
baş direktoru v.i.e.,
aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent

Akademik Teymur Kərimlinin biblioqrafiyası

Tanınmış ədəbiyyatşünas, mətnşünas, şərqşünas, tərcüməçi və şair, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimlinin 70 illik yubileyi münasibətilə "Elm" nəşriyyatında çap olunmuş "Biblioqrafiya"da alimin həyatı, elmi və ictimai fəaliyyəti əks olunmuşdur.



Kitab "T.H.Kərimlinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" ilə açılır. Kitaba daxil edilmiş AMEA Rəyasət Heyətinin "Akademik Teymur Kərimlinin 70 illik yubileyi haqqında" qərarında oxuyuruq: "Çoxşaxəli elmi yaradıcılığa malik olan Teymur Kərimlinin peşəkar tədqiqat sahəsi qədim və orta əsrlər Azərbaycan ədəbiyyatıdır. Onun elmi əsərləri Azərbaycanın klassik irsinin, xüsusilə Xaqani, Nizami, Nəsimi, Füzulinin və digər klassiklərin müasir nəzəri-metodoloji baxışlar sistemi əsasında tədqiqinə həsr olunmuşdur".

AMEA-nın Prezidenti akademik İsa Həbibbəyli kitaba yazdığı "Klassik ədəbiyyatın tədqiqatından şeir yaradıcılığına qədər" adlı ön sözdə akademik Teymur Kərimlinin həyatından, çoxsahəli elmi, ədəbi fəaliyyətindən söz açmış, onun əsasən qədim dövr və orta əsrlər ədəbiyyatı üzrə ixtisaslaşmış görkəmli mütəxəssis olduğunu, Nizami Gəncəvi, İmadəddin Nəsimi və Məhəmməd Füzuli yaradıcılığı ilə bağlı dəyərli tədqiqatlar apardığını xüsusi vurğulayaraq, bu şairlər haqqında yazılmış əsərlərindən bəhs etmiş, tərcümə və redaktə işindəki peşəkarlığını qeyd etmiş, ümumilikdə Azərbaycan klassik ədəbiyyatına verdiyi dəyərli töhfələrdən danışmış və onun şairlik istedadını da dəyərləndirərək, şeirlərinin təhlilinə də geniş yer vermişdir. Teymur Kərimlinin elmi fəaliyyətini əhatəli şəkildə oxucuya çatdıran müəllif onun xarici ölkələrdə də ədəbiyyatımızın gözəl təbliğatçısı olduğunu vurğulayaraq: "Bakı, Kazan, Dərbənd, Ankara, Təbriz, Daşkənd, Tehran, Bağdad, Marağa, Urmiya, Hələb, Dəməşq, Daşkənd, Budapeşt, İstanbul, Milan, Dehli, Aşqabad, Moskva, Almatı şəhərlərində keçirilən müxtəlif mövzulu beynəlxalq konfranslarda klassik Azərbaycan ədəbiyyatının aktual problemləri barədə elmi məruzələrlə çıxış etmiş, Azərbaycan elmini layiqincə təmsil etmişdir" yazır.

Kitabda akademik Bəkir Nəbiyevin "Həmkarları arasında ən erudisiyalı qələm sahibi kimi bəyənilən və təqdir edilən alim", akademik Arif Həşimovun "istedadlı mətnşünas və şərqşünas alim", akademik İbrahim Quliyevin "Azərbaycan ədəbiyyatşünaslığında öz yeri olan bir alim, klassik irsimizin görkəmli tədqiqatçılarından biri", akademik Gövhər Baxşəliyevanın "Bir çox fundamental əsərin və monoqrafiyaların müəllifi, klassik irsimizin yorulmaz təbliğatçısı, öz işinə ürəkdən bağlı elm fədaisi", akademik Kamal Abdullanın "klassik ədəbiyyatımızın yorulmaz tədqiqatçısı", akademik Nizami Cəfərovun "Azərbaycan klassik ədəbiyyatı üzrə bir nömrəli mütəxəssis", akademik Muxtar İmanovun "ədəbi-elmi mühitdə söz xiridarı", akademik Nərgiz Axundovanın "Ədalətli, ürəyi açıq, yumorlu, müdrik və hər zaman yardıma ehtiyacı olanın köməyinə gəlməyə çalışan zəhmətkeş, məsuliyyətli, yorulmaz şəxsiyyət", akademik Vaqif Abbasovun "Bir ömürdə alimlik, şairlik, tərcüməçilik, naşirlik, ədəbiyyatşünaslıq kimi bacarıqları özündə birləşdirən böyük nüfuz sahibi olan ziyalı, vətəndaş, ən əsası gözəl insan..." , akademik İsmayıl Hacıyevin "Klassik Azərbaycan ədəbiyyatının mükəmməl tədqiqatçısı və kamil bilicisi, akademik düşüncə tərzinə malik görkəmli alim, geniş dünyagörüşlü yaradıcı fikir adamı, qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tanınmış mütəxəssislərindən biri", akademik Fəxrəddin Qədirovun "xeyirxah təbiətli dost", f.e.d. Paşa Kərimovun "həyatını klassik ədəbiyyatın tədqiqinə həsr etmək qərarına gəlmiş gənclərin tədqiqatçı kimi yetişməsinə xüsusi fikir verən, onlara qayğı ilə yanaşan bacarıqlı elm təşkilatçısı", yazıçı, f.e.d. professor Abuzər Bağırovun "klassik və müasir Azərbaycan ədəbiyyatının mahir bilicisi, Orta əsrlər dövrü ədəbi irsimizin kamil tədqiqatçısı, klassik materialların nadir mətnşünası, Nizami, Nəsimi, Füzuli zirvələrinin vurğunu, usanmaz araşdırıcısı, qayğısız elm təşkilatçısı, gənc alimlərin yetişməsində yorulmazlıq örnəyi - əvəzsiz ustad, poeziyamızın əksər janr və formalarında məharətlə at oynada bilən müqtədir şair, dünya ədəbiyyatına, mədəniyyətinə dərindən bələd olan, qəlbində sönməz Vətən, millət, dövlət, dövlətçilik sevgisi gəzdirən, dostluqda, qardaşlıqda nurlu sədaqət kündəsi timsalında, sadədən sadə, təvazökar, gözü-könlü tox, mükəmməl elm sahibi, təmiz ürəklə fəxr ediləsi, qürur duyulası, bənzərsiz, təkrarsız şəxsiyyət" kimi səciyyələndirdiyi Teymur Kərimli haqqında digər elm və mədəniyyət xadimlərinin dəyərli fikirləri də kitabın "Görkəmli elm və mədəniyyət xadimləri akademik Teymur Kərimli haqqında" adlı bölümündə verilmişdir.

Kitabın tərtibçiləri institutun biblioqrafiya şöbəsinin müdiri Qutiyera Cəfərova və elektron resurslar şöbəsinin sabiq müdiri Firəngiz Hüseynova, elmi redaktorları institutun icraçı direktoru Paşa Kərimov və Hüseyn Cavidin ev muzeyinin direktoru Gülbəniz Babaxanlı, rəyçiləri institutun elmi katibi Əzizağa Nəcəfzadə və Arzu Məmmədxanlıdır. Biblioqrafiyada 1980-2023-cü illəri əhatə edən materialların yer aldığını, azərbaycanca mənbələrlə yanaşı xarici ölkələrdə müxtəlif dillərdə çap olunmuş əsərlər haqqında biblioqrafik məlumatların verildiyini diqqətə çatdıran tərtibçilər burada materialların xronoloji ardıcıllıqla verildiyini, daxildə isə əlifba sırası ilə qruplaşdırıldığını qeyd etmişlər.

Kitabın I bölümündə "Akademik Teymur Kərimlinin həyatının, elmi və ictimai fəaliyyətinin əsas tarixləri" verilmişdir. Burada akademikin anadan olduğu məkan və zaman, təhsil aldığı orta və ali məktəblər, müdafiələri, "Elm" nəşriyyatında, Nizami adına Ədəbiyyat İnstitutunda, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində apardığı vəzifələr, yerli və xarici konfranslarda və simpoziumlarda etdiyi məruzələr, çıxışlar, üzv seçildiyi şuralar və təltifləri haqqında məlumat əldə edə bilirik.

Akademik Teymur Kərimlinin "Əsərlərinin biblioqrafiyası"na 2002-2023-cü illərdə çap olunmuş 15 azərbaycanca, bir rusca müəllif kitabının, 1983-2016-cı illərdə müdafiə etdiyi elmi-tədqiqat işlərindən 4 azərbaycanca, 2 rusca müəllif kitabının, 1988-2016-cı illərdə çap olunmuş 4 azərbaycanca, 1 türkcə, 1 ingiliscə tərtib kitabının, 1992-2011-ci illərdə çap olunmuş 14 fars dilindən tərcümə və iki əski əlifbadan transfoneliterasiya kitabının təsvirləri verilmişdir.

"Dövri mətbuat və məcmuələrdə dərc olunmuş məqalələr" bölümündə 1980-2023-cü illərdə Azərbaycanda və xarici ölkələrdə çap edilmiş 263 azərbaycanca, 6 rusca, 2 türkcə, 10 ingiliscə, 1 bosniyaca, 1 fransızca materialın təsviri əhatə edilmişdir. Bura qəzet və jurnal məqalələri, kitablara yazılmış ön sözlər, konfrans və simpoziumlardakı məruzə və çıxışların mətni daxildir.

Biblioqrafiyanın "Redaktə etdiyi kitablar" bölümündə 1985-2023-cü illərdə çap olunmuş 302 azərbaycanca, 13 rusca, 3 ingiliscə, 1 bosniyaca kitabın təsviri, "Rəy verdiyi, izah və qeyd müəllifi olduğu əsərlər" bölümündə 1985-2023-cü illərdə çap olunmuş 32 azərbaycanca, 2 rusca, 1 özbəkcə kitabın təsviri, "Elmi məsləhətçisi olduğu kitablar" bölümündə 2008-2023-cü illərdə çap olunmuş 37 azərbaycanca, 1 rusca, 1 ingiliscə, bir almanca kitabın təsviri, "Ön söz yazdığı kitablar" bölümündə 2002-2022-ci illərdə çap olunmuş 46 azərbaycanca, 1 türkcə, 3 rusca, 1 özbəkcə, 1 macar dilində kitabın təsviri, "İdeya müəllifi və layihə rəhbəri olduğu kitablar" bölümündə 2018-2020-ci illərdə çap olunmuş 33 azərbaycanca, 1 ingiliscə kitabın təsviri, "Redaksiya heyətinin üzvü olduğu nəşrlər" bölümündə 2011-2023-cü ildə çap olunmuş 51 jurnalın təsviri, "Elmi rəhbəri olduğu tədqiqat işləri" bölümündə 2000-2022-ci illərdə çap olunmuş 16 azərbaycanca, 1 rusca kitabın təsviri, "Elmi məsləhətçisi olduğu elmi-tədqiqat işləri" bölümündə 2 dissertasiyanın (2017) təsviri, "Opponenti olduğu elmi-tədqiqat işləri" bölümündə 7 dissertasiyanın təsviri verilmişdir.

Biblioqrafiyanın "Akademik Teymur Kərimlinin dövri mətbuat səhifələrində dərc olunmuş müsahibələri"bölümündə 2011-2023-cü illərə aid 30 materialın, "Akademik Teymur Kərimlinin televiziya kanallarında çıxışları, müsahibələri" bölümündə isə 2015-2023-cü illərə aid 44 azərbaycanca, 1 türkcə, 2 rusca materialın təsviri, "Həyatı, elmi və ictimai fəaliyyəti haqqında ədəbiyyat" bölümündə azərbaycanca 1 kitab (2013), 2011-2023-cü illərdə dərc edilmiş 44 azərbaycanca, 1 rusca məqalənin təsviri yer alır.

Kitabın sonunda adların müəllif və əsər adlarının əlifba üzrə göstəriciləri verilmişdir.

Tərtibçi müəlliflərin böyük zəhmət və səyi nəticəsində ərsəyə gələn biblioqrafiya tərtib prinsipinə görə mükəmməldir. Lakin nəşr işində bir şeyə iradımızı bildirmək istəyirik: Teymur Kərimlinin adı kitabın üz qabığında müəllif kimi getmişdir. Bizcə, akademik Teymur Kərimli haqqında olduğu üçün kitabın adı ya "Teymur Kərimlinin biblioqrafiyası", ya da "Teymur Kərimli (biblioqrafiya)" kimi getməliydi. Tərtibçi müəlliflərin adı da kitabın üz qabığında müəllif kimi gedə bilərdi. Çünki, biblioqrafiya hazırlamaq olduqca çətin və məsuliyyətli işdir. Bəlkə kitab yazmaqdan daha çətin işdir...

Teymur müəllimi 70 illik yubileyi münasibəsilə təbrik edərkən, kitabın nəşrə hazırlanmasında əməyi olan əməkdaşlarımızı da bu uğur münasibətilə təbrik edir, həm yubilyara, həm də müəlliflərə yeni-yeni uğurlar arzulayırıq.

Sona XƏYAL
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Biblioqrafiya şöbəsinin böyük elmi işçisi

ELAN

"Heydər Əliyev və müasir biologiya elminin inkişafı: uğurlar və çağırışlar" mövzusunda beynəlxalq konfrans keçiriləcək

19-20 dekabr 2023-cü il tarixlərində Bakı şəhərində AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi və AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və müasir biologiya elminin inkişafı: uğurlar və çağırışlar" mövzusunda beynəlxalq konfrans keçiriləcəkdir.

Konfransın əsas elmi istiqamətləri:

1. Biologiya elmində qlobal çağırışlar və gələcək inkişaf perspektivləri;
2. Genomiks, proteomiks, postgenom texnologiyalar biologiya elminin problemlərinin həllində;
3. Gen, hüceyrə və zülal mühəndisliyi, transgenez;
4. Biologiyada rəqəmsal texnologiyalar, maşınöyrənmə üsulları və süni intellekt;
5. Bioloji müxtəliflik, ərzaq təhlükəsizliyinin təmin olunması, ekosistemlərin dayanıqlığı və ətraf mühitin mühafizəsində biologiya elminin iştirakı;
6. Populyasiya genom tədqiqatları;
7. Biorisk və biotəhlükələr, onların qiymətləndirmə, önləndirmə və aradan qaldırılma üsulları, bioloji sistemlərə antropogen təsirlər, özünütəşkil və özünübərpa məsələləri;
8. Bioetika və sintetik biologiyanın problemləri.

Tezislər biol.prob.2023@gmail.com elektron ünvanına göndərilməlidir (tel.: (+994 50) 338 15 71, (+994 12) 463 63 27)

Konfransın dili: Azərbaycan və ingilis dilləri

Tezisin göndərildiyi məktubun mövzu yerində "H.Ə.-100" sözlərinin yazılması xahiş olunur.

Tezislərin göndərilməsi üçün son tarix 15.12.2023-cü ildir.

Tezislərin tərtibi qaydaları

Tezisin adından yuxarıda sağdan aid olduğu seksiyanın nömrəsi göstərilir və sonra bir sətir buraxılır.

Tezisin mətni:

Tezislər Word A4 formatında, Arial 12 şrifti ilə (sahələr: hər tərəfdən 2 sm qoyulmaqla), sətirlərarası 1.05 olmaqla, ən çoxu 2 səhifə həcmində olmalıdır.

